Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

9 MAY 2019-cu il

№ 83 (3981)

Qiymәti 40 qәpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN KƏŞFİYYATININ YENİ NAĞIL SSENARİSİ - AZƏRBAYCAN KƏŞFİYYATI TÜRKİYƏDƏ ERMƏNİSTAN ƏLEYHİNƏ İŞ APARIR...

■ səh. 6 ■

Qarabağ uğrunda informasiya müharibəsinə bütün türkdilli ölkələrin media resursları cəlb olunsa... Əli Həsənov yeni gündəm yaratdı

■ səh. 3 ■

"İsrail Azərbaycanın düşməninə bir güllə ilə belə kömək etməyəcək"

■ səh. 9 ■

İran əleyhinə ABŞ - İsrail hərbi ittifaqı irəliyə yeni addımlar atır...

■ səh. 6 ■

Dünyanın üçdə birini təşkil edən türkdilli ölkələrin teleefir məkanında AzTV və İTV...

■ səh. 10 ■

"Meydan TV" antiazərbaycançıların təsirindən sürətlə uzaqlaşır...

■ səh. 5 ■

Türkdilli dövlətlərin vahid kino industriyasının yaradılması gündəmdə...

■ səh. 14 ■

Paytaxtda motosiklet qəzaları artır, ayrıca yollar yoxdur, hətta piyada səkilərində hərəkət edən motosikletlərə rast gəlinir

■ səh. 15 ■

Xəzəri çirkləndirən obyektlərlə bağlı son qəti qərar verildi...

■ səh. 15 ■





■ səh. 8 ■

## İrəvanda yüksək ABŞ diplomatından «Azərbaycanla sülhə gəlin» çağırışı - Tramp-Paşinyan görüşü barədə sual cavabsız qaldı...




Azərbaycan XİN ermənilərin «Şuşa işğalı bayramına» zəhər qatdı - 4 min nəfər məskunlaşma faktı...

■ səh. 5 ■

Azərbaycandan Ermənistana köçmüş ermənilərin tükürpədən peşmançılıq hekayələri...

■ səh. 7 ■



Xeyli vaxtdan sonra təmizlənmiş Naftalan məlhəmi yenidən apteklərə qayıtdı, ancaq çox baha - 7 manatdan yuxarı qiymətə...

■ səh. 12 ■

■ səh. 4 ■

Vüqar Səfərli "Azərenerji"ASC rəhbərliyi ilə 20-dək media rəhbərinin görüşünü təşkil etdi...



■ səh. 8 ■

Erməni təbliğatı Kentin İrəvan səfərini ABŞ-Ermənistan strateji dialoqu kimi qələmə verir...



■ səh. 11 ■

Ceyhun Bayramov məktəblərdə daha bir əhəmiyyətli dəyişiklik layihəsinin anonsunu verdi



■ səh. 13 ■

Sığorta yığımları artır, sığorta ödənişləri azalır - paradoksal prosesin əsl mahiyyəti...



■ səh. 12 ■

Azərbaycanda feodalsayağı ərəvermə...



## Elçin Quliyev Ermənistanla təmas xəttindəki bölmələrin döyüş fəaliyyətini yoxlayıb

**Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Ağstafa rayonu ərazisində hərbi hissə və bölmələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb.**



DSX-dən "Trend"ə verilən məlumata görə, E.Quliyev sərhəd döyüş məntəqələrində xidmət edən şəxsi heyətlə görüşüb, Ermənistan silahlı qüvvələrinin bölmələri ilə təmas xəttində sərhəd mühafizə və müdafiə infrastrukturunun yaradılması istiqamətində görülən işlərə baxış keçirib, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi üzrə tapşırıqlar verib.

## Naxçıvan Qarnizonunda növbəti təlim-metodiki toplantı keçirilib

**Naxçıvan Qarnizonunda tabor, divizion komandirləri və onların müavinləri ilə növbəti təlim-metodiki toplantı keçirilib.**

Müdafiə Nazirliyindən "Trend"ə verilən məlumata görə, toplantıya cəlb edilmiş zabitlərin döyüş hazırlığı üzrə nəzəri bilikləri, praktik vərdişləri, gecə şəraitində sürücülük və atəş bacarıqları yoxlanılıb.

Müxtəlif ixtisaslar üzrə məqbullar götürülən zaman zabitlər yüksək nəticə göstəriblər. Dörd gün davam edən toplantının sonunda tabor, divizion komandirləri və onların müavinlərinə döyüş atışlı tabor taktiki təliminin planlanması, hazırlanması, keçirilməsi, təlim zamanı bölmələrin və atəşin idarə edilməsi metodikası praktik olaraq göstərilib.

Təlimdə yaranmış əməliyyat şəraitinə əsasən, motoatıcı taborun düşmənlə bilavasitə təmas vəziyyətindən hücuma keçərək şərti düşməni məhv etməsi praktik yerinə yetirilib. Piyadaların döyüş maşınlarının, top və minaatanların, tank əleyhinə qurğuların, müasir idarəetmə vasitələrinin də cəlb edildiyi təlimdə qarşıya qoyulmuş məqsədə nail olunub.

# "Twitter"in erməni lobbisi ilə çirkin işbirliyinin nəticəsi - Dağlıq Qarabağın Azərbaycanlı İcmasının "Twitter" hesabı bağlandı...

**"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi rəsmi Twitter hesabının bağlanması ilə bağlı bəyanat yayıb.**

Təşkilatdan "Trend"ə təqdim edilən bəyanatda bildirilir ki, hesab ermənilərin şikayəti əsasında bağlanıb: "Bildirmək istərdik ki, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin rəsmi Twitter hesabı ermənilərin coxsaylı şikayəti nəticəsində Twitter administrasiyası tərəfindən bağlanıb. Bununla bağlı tərəfimizdən Twitter-ə rəsmi müraciət edilsə də, bu haqda icmaya hər hansı izahat verilməyib. Dünyanın tanınmış sosial şəbəkəsi tərəfindən icmanın rəsmi Twitter hesabının bloklanması ermənilərin Dağlıq Qarabağ azərbaycanlılarının haqq səsinə olan dözümsüzlüyünü göstərməklə yanaşı, Twitter-in azad sözə və paylaşıma olan "münasibətinin" təzahürüdür. Twitter ermənilərin şikayətini qəbul edərək, 1 miliyondan çox soydaşımızın pozulmuş təbii hüquq və azadlıqlarını, o cümlədən öz torpaqlarına geri dönmək və mülkiyyət hüquqlarını həyata keçirə bilməməsini görməzdən gəlirsə, müasir dünyada ikili standartların özünü bu şəkildə açıq bürüzə verməsi yalnız təəssüf hissi doğurur.



Yaxşı olardı ki, Twitter admnistirasiyası, icmamızın rəsmi səhifəsini bağlamaq əvəzinə, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində sülh şəraitində birgə yaşayaşının yenidən bərpa edilməsinə çağırışlar edərdi".

İcma sosial şəbəkə istifadəçiləri olan soydaşlarımıza müraciət edərək, fəal şəkildə icmanın @AzeCommunityNK hesabını dəstəkləməyə və icmanın rəsmi hesabının bərpa edilməsindən ötrü həmrəylik nümayiş etdirməyə, Twitter admnistirasiyasına çoxsaylı müraciətlər ünvanlamağa çağırır: **"Hesab edirik ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin incisi olan Şuşanın işğal günündə bütün azərbaycanlılar erməni yalanlarına qarşı çıxış edərək, birlikdə haqq səsimizi ucaltmaqdan çəkinməməliyik".**

# Gül və Davudoğlu İstanbulda yeni seçki qərarına qarşı səssizliyini pozdu - "Bir arpa boyda da irəli gedə bilməmişik"

**Türkiyənin keçmiş prezident Abdullah Gül və keçmiş baş nazir Əhməd Davudoğlu İstanbulda bələdiyyə seçkilərinin yenidən keçirilməsinə dair Ali Seçki Komissiyasının qərarını sərt tənqid edib.**

Baki-xeber.com xəbər verir ki, hakim AKP-də müxalif cəbhənin liderləri sayılan Gül və Davudoğlu məsələ ilə bağlı sosial mediada açıqlama yayıb.

"2007-ci ildə Konstitusiya Məhkəməsinin haqsız "367" qərarı qarşısında nə hiss etmişdimsə, başqa bir qurum - Ali Seçki Komissiyasının 6 may tarixli qərarını eşitdikdə eyni hissləri yaşadım" - Gül deyib



Keçmiş prezident ardınca yazır: "Yazıq, bir arpa boyda da irəli gedə bilməmişik".Əhməd Davudoğlu da seçkinin nəticələrinin ləğv edilməsini sərt tənqid edib. Bildirib ki, İstanbul seçkisindən sonra baş verənlər və seçki nəticələrinin ləğvi Türkiyə demokratiyasının təməl dəyərlərinə ciddi ziyan vurub. Sabiq baş nazir bu qərarının beynəlxalq hüquqa zidd olduğunu bəyan edib.

**Qeyd edək ki, hakimiyyəti tənqid edən və hələ də hakim AKP-nin üzvləri olan Abdullah Gül və Əhməd Davudoğlunun yeni partiya yaradacağı bildirilir.**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -

Abunə!

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Azərbaycanda kreditlə turizm səfərləri təşkil edən turizm şirkətlərinin sayı artırılacaq

**Azərbaycanda turizm şirkətləri tərəfindən kreditlə tur paketlərin verilməsinin genişləndirilməsi nəzərdə tutulur. Bunu "Trend"ə Azərbaycan Turizm Assosiasiyasının (AzTA) sədri Nahid Bağırov deyib.**

Onun sözlərinə görə, 2015-ci ildə baş verən devalvasiyadan sonra banklar tərəfindən müştərilərə inamsızlıq yarandığından turizm səfərləri üçün kreditlərin verilməsi halları olduqca azalıb.

Bu işin genişləndirilməsi üçün işlərin aparıldığını deyən N.Bağırov bildirib ki, yaxın vaxtlarda Azərbaycan Turizm Assosiasiyasına üzv olan turizm şirkətlərinin müştəriləri ilkin ödəniş olmadan, kreditlə tur paketlər ala biləcəklər. Vətəndaşlar kreditlə aldıqları turpaketin qiymətini şirkətin bank hesabına maksimun 1 il müddətinə aybaay ödəyəcəklər.

N.Bağırov əlavə edib ki, təklif edilən kreditin faiz dərəcəsi çox əlverişli olacaq.

Kreditlə turpaketlərin verilməsi ilkin mərhələdə AzTA-ya üzv olan 20 şirkətə şamil ediləcək, bu say daha sonra artırılacaq.

O qeyd edib ki, müştərilər məbləğ məhdudiyyəti olmadan, istənilən istiqamət üzrə kreditlə verilən turpaketdən yararlana biləcək.

# Qarabağ uğrunda informasiya müharibəsinə bütün türkdilli ölkələrin media resursları cəlb olunsa... Əli Həsənov yeni gündəm yaratdı

**Dağlıq Qarabağ münaqişəsi regionun və dünyanın ən çətin həll olunan münaqişələrindən biridir. Burada işğalçı və işğala məruz qalan tərəf var, hər şey aydındır. Bizim türkdilli dövlətlərin informasiya dəstəyinə ehtiyacımız var. Çünki zaman-zaman ermənilər öz təbliğatlarını həyata keçiriblər.**

*"Bu addımın ciddi bir şəkildə həyata vəsiqə qazanması üçün həm bizim dövlət, həm də digər türk dövlətləri ciddi fəaliyyət göstərməlidirlər"*

Bunu Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov jurnalistlərə açıqlamasında deyib.

Əli Həsənovun sözlərinə görə, Azərbaycanın türkdilli dövlətlərin informasiya dəstəyinə ehtiyacı var: "Türk Şurasına üzv dövlətlər arasında informasiya sahəsində inteqrasiyanın gücləndirilməsi labüddür. Misal üçün, 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycanın informasiya dəstəyinə ehtiyacı var idi. Ermənilərin təxribatları, onların bölgədə həyata keçirdiyi işğalçılıq siyasətləri, Azərbaycanın mədəni və dini obyektlərini dağıtmasının regionda və dünyada nümayiş etdirilməsinə ehtiyac var idi. Ona görə də hesab edirəm ki, Türk Şurasına üzv dövlətlər belə məqamlarda bir-birinə dəstək verməlidir".

PA-nın şöbə müdiri onu da vurğulayıb ki, bu gün dünyada islam dininə qarşı çirkin kampaniya aparılır: "İslam dövlətləri, müsəlman xalqları terrorla eyniləşdirilir. Onların mədəniyyətləri və dəyərləri inkar olunur".

Türk dövlətləri dünyada böyük coğrafi arealı əhatə edir. Sözügedən dövlətlər Dağlıq Qarabağla bağlı informasiya dəstəyi versələr, bu, Ermənistanın işğalçılıq siyasətinin dünyada ifşası baxımından faydalı ola bilər. Ümumilikdə, türk dövlətlərinin bu yöndə fəaliyyəti yetərlidirmi? Bunun nə kimi əhəmiyyəti var?

**Məsələyə münasibət bildirən media eksperti Azər Həsrət buna bir neçə rakursdan yanaşdı:** "Türkdilli dövlətlərin informasiya dəstəyi verməsi çox önəmlidir. Ona görə ki, türk dövlətlərində həm də erməni diaspor təşkilatları fəaliyyət göstərir. Çünki ermənilər yaşadıqları ölkələrdə boş dayanmırlar. Azərbaycana qarşı, ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həmin ölkələrin cəmiyyətlərini, ictimaiyyətlərini yanlış məlumatlandırmağa cəhd göstərirlər. Əsasən də biz bunu Orta Asiyadakı türk dövlətlərində müşahidə edirik. Eyni zamanda, Rusiyanın tərkibində olan türk muxtariyyətlərində də analoji hallar yaşanır. Yəni bizim olmadığımız yerdə ermənilər fəal şəkildə Azərbaycana qarşı təbliğat aparırlar. Hətta bizim digər türk qardaşlarımızı belə bizə qarşı çevirməyə cəhd göstərirlər. Nəticə də göz qabağındadır. Özbəkistanda bizim dostlarımızdan biri olan Şöhrət Salamov erməni məsələsi ilə bağlı ciddi fəaliyyət göstərir. Bir müddət əvvəl ermənilər ona qarşı bir "akademiki" ortaya salmışdılar. Faktiki olaraq ermənilərin cərgəsində yer tutaraq özbəklərə, bizə qarşı çıxış edirdi. Bütün bunlar da təsadüfi deyil. Deməyim odur ki, bizim olmadığımız yerdə onlar öz işlərini görürlər. Ona görə də televiziya, qarşılıqlı informasiya mübadiləsi, informasiya dəstəyi sahəsində işləri türkdilli dövlətlər vaxtında həyata keçirsəydilər, bütün bunlar baş verməzdi. Dağlıq Qarabağ həqiqətləri ilə bağlı türkdilli dövlətlərin informasiya dəstəyini hələlik yetərli hesab etmək olmaz. Yalnız Türkiyənin bu yöndə fəaliyyəti qənaətbəxşdir. Yaxşı olardı ki, digər türkdilli dövlətlər də bu işdə fəal olsunlar".

***Azər Həsrət:** "Dağlıq Qarabağ həqiqətləri ilə bağlı türkdilli dövlətlərin informasiya dəstəyini hələlik yetərli hesab etmək olmaz"*



A.Həsrətin fikrincə, bu sahədə Azərbaycandan asılı olan nə varsa, dövlət bunu edir: "Sadəcə olaraq digər türkdilli dövlətlərin də bu məsələdə aktiv rol alması lazımdır. Bax ona görə də PA rəsmisi Əli Həsənov məlum toplantıda çıxışında sözügedən məsələni vurğuladı. Çox sevindiricidir ki, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan iştirakçılar həmin məsələdə öz dəstəklərini ifadə etdilər. Faktiki olaraq, ümumi informasiya məkanının formalaşdırılması üçün ilkin addımın atıldığını deyə bilərik. Bu addımın ciddi bir şəkildə həyata vəsiqə qazanması üçün həm bizim dövlət, həm də digər türk dövlətləri ciddi fəaliyyət göstərməlidirlər.

Nəticə etibarilə biz buna nail ola biləcəyik ki, təkcə Dağlıq Qarabağ məsələsi ilə bağlı deyil, ümumiyyətlə, türk dövlətlərinin qarşılıqlı şəkildə maraqlarına uyğun bir çox məsələ barədə ortaq mövqedən çıxış edək. Hesab edirəm ki, informasiya dəstəyi olsa, bunun əhəmiyyətli nəticəsi olacaq".

***Vidadi ORDAHALLI***

# Pərviz Şahbazov ABŞ-ın İrana qarşı sanksiyalarının neft bazarına güclü təsir göstərməyəcəyini deyir

*Azərbaycan OPEC+ çərçivəsində öhdəliklərini yerinə yetirməyə başlayıb*



**İran neftinin ixracı ilə bağlı ABŞ-ın sanksiyaları neft bazarına ciddi təsir göstərməyəcək. Baki-xeber.com İnterfax-a istinadən xəbər verir ki, bunu Azərbaycanın energetika naziri Pərviz Şahbazov deyib.**

"ABŞ-ın İrana qarşı sanksiyaları və bir sıra ölkələrin İran neftini almaqdan imtina etməsi, əlbəttə ki, bazarda neft ehtiyatlarının azalmasına gətirib çıxaracaq. Bunun ümumi prosesə necə təsir edəcəyini söyləmək çətindir, çünki dünya iqtisadiyyatının artım templərinin 3,6%-dən 3,1%-dək azalması müşahidə olunur, eyni zamanda, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan ölkələrdə neft ehtiyatlarının həcmi az da olsa artır. Hesab edirəm ki, sanksiyalar bazara hər hansı radikal təsir göstərməməlidir", - deyə o, jurnalistlərə bildirib.

Nazir həmçinin qeyd edib ki, Azərbaycan İran, o cümlədən Səudiyyə Ərəbistanı ilə bağlı vəziyyətlə əlaqədar OPEC+ formatında aparıcı rol oynayan ölkələrlə daim əlaqə saxlayır.

"Bizdə olan məlumata görə, Səudiyyə Ərəbistanı və BƏƏ iyun ayına qədər neft hasilatına dair birtərəfli qaydada qərar qəbul etməyəcək. Bu ölkələr yalnız iyun ayında Vyanada keçirilmiş OPEC+ Nazirlər Şurasının toplantısında qəbul edilən qərarlardan asılı olaraq addım atacaq", - deyə P.Şahbazov vurğulayıb.

Azərbaycan OPEC+ çərçivəsində öhdəliklərini yerinə yetirməyə başlayıb. Bunu da energetika naziri Pərviz Şahbazov deyib. Onun sözlərinə görə, OPEC+ çərçivəsində neft hasilatı həcmlərinin azaldılması təmin edilib.

**Nazir qeyd edib ki, bu ilin iyun ayında Vyanada keçiriləcək OPEC+ formatı çərçivəsində nazirlərin konfransı zamanı ilin ikinci yarısı üçün neft hasilatının həcmləri ilə bağlı qərarlar qəbul edilə bilər.**

Qeyd edər ki, hazırda Azərbaycanda gündəlik orta neft hasilatı təxminən 770 min barel təşkil edir.

# Vüqar Səfərli "Azərenerji" ASC rəhbərliyi ilə 20-dək media rəhbərinin görüşünü təşkil etdi...

*Fondun təşkilatçılığı ilə media rəhbərləri "Azərenerji" ASC-nin fəaliyyəti ilə yaxından tanış olublar*

**Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun və "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Azərenerji" ASC ilə kütləvi informasiya vasitələri arasında əlaqələrin genişləndirilməsi" mövzusunda konfrans keçirilib.**



Tədbirdə Fondun icraçı direktoru Vüqar Səfərli, "Azərenerji" ASC-nin vitse-prezidenti Ziyəddin Quliyev, səhmdar cəmiyyətin prezidentinin müşaviri Vüqar Əliyev, "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifov, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri iştirak edib.

Tədbir iştirakçılarını salamlayan "Azərenerji" ASC-nin vitse-prezidenti Ziyəddin Quliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin energetika sisteminin əsaslı şəkildə modernləşdirilməsi, "itirilmiş" generasiya güclərinin bərpası məqsədilə kompleks tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. Ziyəddin Quliyev həmçinin bildirib ki, 2018-ci il 3 iyul tarixində baş vermiş qəzanın təkrarlanmaması məqsədilə "Azərenerji" ASC tərəfindən hazırlanaraq dövlət başçısına təqdim edilən "Reabilitasiya üzrə Tədbirlər Planı" əsasında ötən ilin sentyabr ayından etibarən təxirəsalınmaz tədbirlər görülür.

"Azərenerji" ASC-nin vitse-prezidenti proqram çərçivəsində son üç ay ərzində "Cənub", "Şimal" və "Bakı" elektrik stansiyalarında görülən işlər nəticəsində 230 MVt gücün bərpa edildiyini vurğulayıb: "Bundan əlavə, "Azərbaycan" İstilik Elektrik Stansiyasının 6 saylı enerji blokunda kompleks yenidənqurma işləri aparılıb və nəticədə təmirdən sonra 6 sayli enerji blokunda 60 MVt yük məhdudiyyəti aradan qaldırılıb. Ümumilikdə, "Reabilitasiya proqramı" çərçivəsində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İES tamamilə yenidən qurulur. Yeni turbinlər, generatorlar, rele mühafizə sistemi, sexlər, yarımstansiyalar, 500 və 330 kV-luq hava xətləri, əks qəza avtomatikası yenidən qurularaq bərpa edilir. Yanğınsöndürmə, inzibati bina, idarəetmə mərkəzi tikilir. Yuxarı Qarabağ kanalının üzərindən əhali üçün yeni körpü və yol salınacaq, yeraltı soyutma su boru sistemləri bərpa ediləcək. Görülmüş işlər nəticəsində stansiyanın gücü 320 MVt artaraq 2000 MVt-a catacaq".

Ziyəddin Quliyev həmçinin vurğulayıb ki, "Reabilitasiya proqramı" çərçivəsində Bakı şəhərində, habelə regionlarda infrastruktur və sahibkarlıq obyektlərinin elektrik enerjisi ilə təchizatında mühüm rol oynayan "Bakı", "Astara", "Şəki", "Xaçmaz", "Şahdağ" və "Səngəçal" modul tipli elektrik stansiyalarında da itirilmiş gücün bərpası istiqamətində işlər aparılır. O bildirib ki, bir çox elektrik stansiyaları və yarımstansiyaları 500, 330, 320, 110 kV-luq hava xətləri, o cümlədən yarımstansiyaların yenidən qurulması işləri aparılır. Ziyəddin Quliyev qeyd edib ki, "Reabilitasiya Proqramı"na müvafiq olaraq hazırda yüksəkgərginlikli elektrik verilişi xətlərində modernləşmə həyata keçirilir, enerjinin idarə edilməsi üçün SCADA dispetçer sisteminin yenidən qurulması istiqamətində işlər görülür.

"Azərenerji" ASC-nin vitse-prezidenti görülmüş işlərin ictimaiyyətə geniş və obyektiv şəkildə çatdırılması baxımından təmsil etdiyi qurumun media ilə əməkdaşlığa daim açıq olduğunu bildirib. Belə bir tədbirin təşkilində Fondun dəstəyini yüksək dəyərləndirən Ziyəddin Quliyev sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib.

İcraçı direktor Vüqar Səfərli tədbir iştirakçılarını salamlayaraq, Fondun fəaliyyət göstərdiyi 10 il müddətində ölkədə fikir, söz və məlumat azadlıqlarının inkişafına, çap mediasının maddi-texniki bazasının möhkəmləndirilməsinə, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasına, eləcə də sosial müdafiəsinin və mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına xidmət edən çoxsaylı layihələr həyata keçirdiyini diqqətə çatdırıb.

Vüqar Səfərli mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlığın genişləndirilməsi məqsədinə xidmət edən tədbirlərin, eləcə də birgə fərdi yazı müsabiqələrinin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. İcraçı direktor həmçinin bildirib ki, "Azərenerji" ASC ilə birgə keçirilən konfransın məqsədi Azərbaycanın enerji təhlükəsizliyinin davamlı olaraq təmin edilməsi, elektrik enerjisinə artan tələbatın etibarlı və dayanıqlı şəkildə ödənilməsi, bu sahədə əsaslı modernləşmənin aparılması ilə əlaqədar reallaşdırılan tədbirlərin ictimaiyyətə dolğun şəkildə çatdırılmasıdır.

Azərbaycanın nəinki qonşu ölkələrə, eləcə də bir sıra nüfuzlu Avropa ölkələrinə elektrik enerjisi ixrac etməsini, habelə "Azərenerji" ASC-nin Avropa miqyasında keçirilən tenderlərin qalibi olmasını yüksək dəyərləndirən Vüqar Səfərli son aylarda səhmdar cəmiyyətin fəaliyyətində əhəmiyyətli dəyişikliklərin hiss olunduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifov 2015-ci il fevralın 10-da "Bakıelektrikşəbəkə"nin bazasında "Azərişıq" ASC-nin yaradılmasından sonra istehlakçıların keyfiyyətli enerji təminatı sahəsində kompleks tədbirlərin həyata keçirildiyini, infrastrukturun müasirləşdirildiyini, qabaqcıl texnologiyaların tətbiq edildiyini diqqətə çatdırıb. "Azərişıq" ASC-nin sədr müavini ölkə rəhbərliyi tərəfindən müəyyənləşdirilmiş strateji vəzifələrə müvafiq olaraq "Azərişıq" ASC-nin istehlakçıların etibarlı və dayanıqlı elektrik enerji ilə təchizatı istiqamətində sistemli iş apardığını xüsusi vurğulayıb. O bildirib ki, son illərdə yeni generasiya güclərinin yaradılması hesabına Azərbaycan elektrik enerjisi sahəsində idxalçıdan ixracatçıya çevrilib, Bakı şəhərinin və regionların fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təchizatındakı fasilələr aradan qalxıb.

"Azərenerji" ASC sədrinin müşaviri Vüqar Əliyev çıxışında "Reabilitasiya Proqramı" çərçivəsində energetika sistemində çalışan 5600-dək əməkdaşın sosial vəziyyətinin yaxşılaşdırılması, onların əmək haqlarının yüksəldilməsi, habelə peşə hazırlığı səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərdən söz açıb.

Sonra tədbir diskussiya formatında davam etdirilib. Görüşdə çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Trend" İnformasiya Agentliyinin baş direktorunun müavini Arzu Nağıyev, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli səhmdar cəmiyyətin fəaliyyətində son aylarda qabarıq hiss olunan yenilikləri təqdir edərək, qurumun yeni rəhbərliyinin müasir tələblərə cavab verən islahatlarını razılıqla vurğulayıblar.






Daha sonra media rəhbərlərini maraqlandıran suallar ətraflı cavablandırılıb.

Çıxışını davam etdirən Fondun icraçı direktoru Vüqar Səfərli diqqətə çatdırıb ki, keçirilən tədbirin yekunu olaraq "Azərenerji" ASC və Fondun birgə təşkilatçılığı ilə "Azərenerji" ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər" mövzusunda birgə fərdi jurnalist yazıları müsabiqəsinin keçirilməsi nəzərdə tutulur. 2019-cu il may ayının 10-dan iyulun 5-dək keçiriləcək müsabiqənin məqsədi "Azərenerji" ASC-nin "Reabilitasiya Proqramı" çərçivəsində görülən və görüləcək işlərin, qarşıya qoyulmuş hədəflərin ictimaiyyətə obyektiv şəkildə çatdırılmasında peşəkar jurnalist yaradıcılığının stimullaşdırılmasıdır.

Fondun icraçı direktoru Vüqar Səfərli sonda media ilə səmərəli əməkdaşlığın genişləndirilməsinə verdiyi töhfəyə görə "Azərenerji" və "Azərişıq" açıq səhmdar cəmiyyətlərinin rəhbərliyinə təşəkkürünü bildirib, belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə edib.

# Azərbaycan XİN ermənilərin "Şuşa işğalı bayramına" zəhər qatdı - 4 min nəfər məskunlaşma faktı...

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Şuşa şəhərinin işğalının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb. Bəyanatda bildirilir ki, 1992-ci il mayın 8-də Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycanın tarixi şəhəri olan Şuşa işğal olunub:**

*"Özü də Ermənistanın üzərinə öhdəlik qoyan bir qərardan söhbət getməlidir"*

"İşğalı nəticəsində Şuşa şəhəri və rayonun 30 kəndi dağıdılıb, 195 nəfər dinc sakin həlak olub, 165 nəfər yaralanıb, 58 nəfər itkin düşüb, 24 mindən çox əhali etnik təmizləməyə məruz qalıb...".

XİN-in yaydığı bəyanatda diqqətçəkən vacib məqamlardan biri də budur ki, işğalçı Ermənistan tərəfinin işğal etdiyi Şuşa şəhərində qanunsuz məskunlaşma aparması da sübuta yetirilir: "Beynəlxalq humanitar hüququn tələblərinə zidd olaraq, Şuşanın işğalı zamanı aparılmış etnik təmizləmənin ardınca orada Azərbaycan tarixi-mədəni mirasının məhv edilməsi və tədricən şəhərin mədəni simasının dəyişdirilməsinə yönəldilən cəhdləri etməkdədir. Belə ki, Şuşada qeyri-qanuni məskunlaşma aparılmaqla, təqribən 4 min nəfər yerləşdirilib. Qarabağ hökmdarı İbrahim xanın qızı Gövhərağanın sifarişi ilə tikilən Yuxarı Gövhərağa (Cümə) məscidi ermənilər tərəfindən "bərpa" olunaraq fars məscidi kimi qələmə verilir. Bütün bunlar işğalçı tərəfin Şuşanın əzəli Azərbaycan şəhəri olması faktının üzərinə kölgə salmaq niyyətini açıq şəkildə nümayiş etdirir".

Göründüyü kimi, bəyanatda ermənilərin Şuşanı işğal etdikləri və bütövlükdə, azərbaycanlıların yaşadıqları şəhərlərdə məskunlaşma apardıqları konkret olaraq əksini tapır. Sülh danışıqlarına sadiqlik imitasiyası edən bir ölkənin "əbədi işğala" hesabladığı bu cür addımlarına beynəlxalq birlik niyə reaksiya vermir?

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu olduqca ciddi faktdır:** "Bununla bir daha sübut olunur ki, ermənilər heç bir güzəştə hazır deyillər. Əksinə, tarixi Azərbaycan şəhərlərində də süni məskunlaşma aparıb, hətta həmin yerlərin tarixini də saxtalaşdırmağa cəhd edirlər. İşğalı daimi etmək üçün hər vasitəyə əl atırlar. Hətta bu yöndə saxta kitablar da yazırlar. Görürsünüz ki, Dağlıq Qarabağın vuran ürəyi olan Şuşanı da öz törtöküntüləri ilə doldururlar. Bizim XİN 4 min nəfərin məskunlaşdığını yazırsa, deməli, onlar məsələni tam ciddiləşdiriblər. Azərbaycan, mütləq mənada, bu məsələni beynəlxalq təşkilatların qarşısında qaldırmalıdır. Onlar da bu məsələyə ciddi şəkildə reaksiya verməlidirlər. Əgər reaksiya verməsələr, bunu

**Akif Nağı:** *"Bu məntəqələrin hər biri ilə bağlı beynəlxalq təşkilatların qərarı olmalıdır"*




tam ictimailəşdirmək lazımdır və bu fakt ermənilərə göstərilən havadarlıq kimi qeyd edilməlidir. Dağlıq Qarabağın ərazisində Şuşa qarışıq 57 yaşayış məntəqəsi olub. Onların hər biri ilə bağlı bu araşdırma aparılmalıdır. Dağlıq Qarabağ bütövlükdə bizə məxsusdur, ancaq bu 57 məntəqədə, ümumiyyətlə, ermənilər yaşamayıb. Bu məntəqələrin hər biri ilə bağlı beynəlxalq təşkilatların qərarı olmalıdır. Özü də elə belə qərar yox, Ermənistanın üzərinə öhdəlik qoyan bir qərardan söhbət getməlidir. Bu hədəfə çatana kimi Azərbaycan addımlarını atmalıdır. Çox təəssüflər olsun ki, bu yöndə olan səylərimiz nəticə vermir. Beynəlxalq təşkilatlar hətta bu cür faktlarla da bağlı seyrçi mövqe tutmağa üstünlük verirlər. Ermənistan nəinki Dağlıq Qarabağın hüdudlarında, hətta ondan kənarda belə məskunlaşma siyasəti aparır. Laçında, Qubadlıda, Kəlbəcərdə və başqa ərazilərimizdə də belə faktlar çoxdur. Belə bir acı reallıq qarşısındayıq. Bu bir daha göstərir ki, bizim beynəlxalq təşkilatlardan nəsə gözləməyimiz yersizdir. Sözü Azərbaycan Ordusu deyib həmin əraziləri işğaldan azad etməlidir. Çıxış yolu budur".

***Məhəmmədəli QƏRİBLİ***

# "Meydan TV" antiazərbaycançıların təsirindən sürətlə uzaqlaşır...

**Mənzil qərargahı Berlində olan və uzun müddətdir Azərbaycan hakimiyyətinə qarşı radikal mövqedən çıxış edən "Meydan TV" adlı media resursu ətrafında maraqlı proseslər yaşanır. Əvvəlcə layihənin başında duran Emin Milli istefa verdiyini bəyan etdi. Ancaq bir sıra media ekspertləri Emin Millinin media resursuna təsir imkanlarının qaldığı qənaətindədirlər.**




*"Bu proseslərin gedişi hamımızın ürəyincədir və sonda dövlətimizin güclənməsinə gətirib çıxaracaq"*

Emin Millinin özü son günlər "Facebook"da paylaşdığı postlarda, demək olar ki, hakimiyyətin mövqeyini dəstəkləyən mövqe ortaya qoyur. Bunun ardınca isə həmin qurumla əməkdaşlıq edən dörd jurnalist Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlər üzrə İstintaq İdarəsinə dəvət olunublar və onlara bildirilib ki, ölkədən çıxışlarına qoyulmuş qadağa götürülüb. Qeyd edək ki, həmin qadağa dörd il ərzində - 2015-ci ildən qüvvədə idi. Jurnalist Natiq Cavadlı deyib ki, onları idarə rəisi Eldar Əhmədov qəbul edib: "Özünün imzaladığı bildirişi təqdim edərək bildirdi ki, ölkədən çıxışa qoyulmuş qadağa zərurətin aradan qaldırılması səbəbindən götürülüb".

Ondan başqa, analoji bildirişi İzolda Ağayeva, Səlimə Cəlilova və Rasim Qaraca alıblar. Gözlənildiyinə görə, yaxın vaxtlarda ölkədən çıxışa qoyulmuş qadağa "Meydan TV" üçün materiallar hazırlamış ən azı səkkiz jurnalist barəsində ləğv ediləcək.

Qeyd edək ki, ölkədən çıxışa qoyulmuş qadağa "Meydan TV" internet portalı ilə əməkdaşlıq etmiş jurnalistlər qrupu barəsində cinayət işi ilə bağlı tətbiq edilmişdi. Hər halda, ortada tərəflərin bir-birinə müsbət mənada jestlər etdiyi nəzərə çarpır. Bu onu deməyə əsas verirmi ki, "Meydan TV"nin üzərində olan xarici təsirlər tam zəifləyib?

**Media eksperti Yadigar Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin mediaya xarici təsirlərin hansı səviyyədə olduğu barədə dəqiq informasiyaya malik deyil:** "Amma üzdə olan faktlar həmin media qurumu ilə bağlı yeni yanaşmanın ortaya çıxdığını aydın büruzə verir. Mən Emini həbsə düşən dövrdən tanıyıram. Çox vətənpərvər insan kimi xarakterizə edərdim. Bilirsiniz ki, həmin vaxt bizim Demokratik Jurnlaistlər Liqası onların hüquqlarının qorunması ilə bağlı müəyyən işlər gördü. Bizim təşkilatımız həmin vaxtlar bir neçə başqa təşkilatla birlikdə həmin istiqamətdə fəallıq edirdi. Çox sevindiricidir ki, Emin Milli obyektiv yazılar yayımlayır. Jurnalistika müxalif olmalıdır, buna bizim sözümüz ola bilməz. Amma qərəzdən uzaq durmalıdır. Bizim iradımız həmin qərəzli mövqeyə olub hər zaman. Hər şeyi qara rəngdə görmək jurnalistikanın prinsiplərinə ziddir.

**Yadigar Məmmədli:** *"Bütün hallarda, yaxşı və alqışlanası vəziyyətdir"*

Bəli, Emin Millinin son fikirlərində ölkədə görülən bütün müsbət işlər təqdir edilir. Tənqidlə yanaşı, pozitiv məqamları da görüb dəyərləndirmək yaxşıdır. Jurnalistlərin ölkədən çıxışı ilə bağlı qadağanın götürülməsi də çox pozitiv haldır. Jurnalist müstəqil və sərbəst olmalıdır. İstərdik ki, hər bir jurnalist də xaricə çıxanda ölkənin milli, dövləti maraqlarını daha öndə tutsun, hansısa xarici təsir altına düşməsin. Bütün hallarda, yaxşı və alqışlanası vəziyyətdir. Bu proseslərin gedişi hamımızın ürəyincədir və sonda dövlətimizin güclənməsinə gətirib çıxaracaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan kəşfiyyatının yeni nağıl ssenarisi - Azərbaycan kəşfiyyatı Türkiyədə Ermənistan əleyhinə iş aparır...

**Ermənistan KİV-i yazır ki, həmin ölkənin xüsusi xidmət orqanları şpionaj olayının üstünü açıblar. Ermənistanın təhlükəsizlik orqanlarına istinadən bildirilir ki, Azərbaycan kəşfiyyatı bu işə erməni casusları Türkiyə ərazisindən istifadə edərək cəlb edib.**



*"Türkiyənin beynəlxalq imicinə kəşfiyyat üçün açıq plasdarm olan ölkə kimi ləkə yaxmaq istəyirlər"*

***Elşən Həsənov:** "Ola bilər ki, hər iki şəxs həqiqətən Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşı olub"*

Qeyd edilir ki, adı hələ məlum olmayan bir şəxs Türkiyə ərazisində özünü Ermənistan xüsusi xidmət orqanlarının işçisi kimi qələmə verib və tanışlığı yaranmış Ermənistan vətəndaşından həmin ölkə ilə bağlı bir çox mühüm məlumatı əldə edib. Məlumatlar sırasında hərbi hissələrlə bağlı bilgilərin olduğu vurğulanır və qeyd edilir ki, bu məlumat mübadiləsi 2011-2018-ci illər ərzində aparılıb. Qeyd edilir ki, məxfi məlumatlar Azərbaycan tərəfinin əlinə keçib və bu, Ermənistanın suverenliyinə olan zərbə kimi qeydə alındığı üçün, cinayət məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Bu məlumatı Ermənistanın növbəti nağıl ssenarisi kimi qəbul edə bilərikmi?

**Təhlükəsizlik qurumlarının sabiq əməkdaşı Elşən Həsənov qəzetimizə açıqlamasında bildirdi ki, yayılan məlumatın özündə kifayət qədər ziddiyyətli məqam var:** "Əvvəla onu qeyd edim ki, hansısa üçüncü ölkənin ərazisindən istifadə etməklə, üçüncü ölkənin vətəndaşlarının köməkliyi ilə başqa bir ölkəyə qarşı kəşfiyyat işlərinin görülməsi praktikası geniş yayılıb. Konkret olaraq bu halı nəzərdə tutmuram. Çünki bunun Ermənistanın hansısa uydurma oyunu olduğunu da zənn edirəm. Ümumən götürdükdə isə bizim Ermənistanla bağlı müəyyən kəşfiyyat hərəkətləri həyata keçirməyimiz normaldır. Çünki, faktiki olaraq, biz həmin ölkə ilə düşmənik və aramızda müharibə gedir. Müharibə deyəndə yalnız səngəri nəzərdə tutmuram. Söhbət həm də informasiya və kəşfiyyat müharibəsindən gedir. Biz və ya Ermənistan desə ki, belə fəaliyyətə üstünlük vermir, inandırıcı görünməz. Çünki müharibənin şərtləri belə bir fəaliyyətin zəruriliyini diqtə edir. Ancaq görürsünüz ki, həmin məlumatın Türkiyədə kimin tərəfindən əldə olunması qeyd edilmir. Deyilir ki, Ermənistan vətəndaşına özünü həmin ölkənin xüsusi xidmət orqanlarının əməkdaşı kimi təqdim edib. Ortada 8 illik əməkdaşlığı olduğu bildirilir. Hər halda, yalnız özünü Ermənistanın xüsusi xidmət orqanlarının işçisi kimi təqdim etmək bu məsələdə kifayət etmir ki, hansısa erməni gətirib materialları həmin şəxsə versin. Bunun üçün həmin şəxsin erməni dilini bilməsi, üstündə müəyyən sənədlərin olması və həqiqətən erməni olduğunu təsdiq edə biləcək elə dəlillər olmalıdır ki, digər ermənini inandıra bilsin. Mən burda başqa detalların olduğunu ehtimal edə bilərəm. Ola bilər ki, hər iki şəxs həqiqətən Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşı olub və Türkiyədə öz xeyirlərinə şpionaj həyata keçiriblər. İfşa olunduqları üçün, mövzunu bu şəkildə yayındırırlar. Başqa versiyam isə budur ki, məqsədli şəkildə Azərbaycana yaxın olan qardaş ölkənin adını hallandırırlar. Türkiyənin beynəlxalq imicinə kəşfiyyat üçün açıq plasdarm olan ölkə kimi ləkə yaxmaq istəyirlər".

***Məhəmmədəli QƏRİBLİ***

# İran əleyhinə ABŞ - İsrail hərbi ittifaqı irəliyə yeni addımlar atır...

**Son günlərdə dünya gündəmində ən çox müzakirə predmetinə çevrilən əsas məsələlərdən biri də ABŞ və İran arasında gərginləşən münasibətlər, bunun savaşa yol açıb-açmayacağıdır. Belə görünür ki, ümumiyyətlə, İran mövzusunu birdəfəlik qapamaq üçün ABŞ hərbi gücdən istifadədə maraqlıdır. Bu məsələdə İsrailin də ABŞ-la fəal təmasda olduğu aydın müşahidə edilir.**




Məhz belə bir vaxtda İsrailin baş naziri Benyamin Netanyahu maraqlı bir açıqlama ilə çıxış edib. O qeyd edib ki, ölkəsi İranın nüvə silahına yiyələnməsinə imkan verməyəcək: "İranın nüvə proqramını davam etdirmək niyyətində olduğunu eşitdim. Biz İrana nüvə silahına yiyələnməyə imkan verməyəcəyik". O bildirib ki, İsrail yəhudi dövlətinin varlığını təhdid edənlərə qarşı mübarizəni davam etdirəcək.

Qeyd edək ki, İran prezidenti Həsən Ruhani mayın 8-də ölkəsinin nüvə razılaşmasından qismən çıxacağını bildirib. Belə vəziyyət ABŞ və İsrailin İrana qarşı aktiv hərbi əməliyyata keçməsinə imkan yaradır. Bunu məhşur "The Daily Beast" nəşri də təsdiq edir. Baş vernələrə bağlı nəşr yazır: "Ötən bazar günü Milli Təhlükəsizlik Şurası bəyan edib ki, ABŞ Fars körfəzinə bir aviadaşıyıcı gəmi və bombardmançı təyyarələr qrupu göndərir və bu, İranın "narahatedici eskalasiya" xəbərdarlıqlarına - Tehranla potensial hərbi qarşıdurmaya cavab olaraq atılan addımdır. Anonim hökumət rəsmiləri hərəkətlərini əsaslandıraraq, İranın Yəmən sahillərindən və İraqdakı proksi qüvvələrlə ABŞ qoşunlarına hücum planlaşdırıldığını ifadə edən kəşfiyyat məlumatlarına istinad ediblər. Milli təhlükəsizlik məsləhətçisi Con Bolton da kəşfiyyat məlumatlarını istinad olaraq göstərib. Beləliklə, ağız birliyi ortaya çıxıb: İran müharibəyə hazırlaşır.

Vəziyyətlə yaxından tanış olan bir çox qaynaq "The Daily Beast"ə bildirib ki, əslində, administrasiya kəşfiyyat xidmətinin hesabatlarına diqqət yetirmək yerinə, onun hesabatlarına qeyri-adekvat təpki verir. Digər bir qaynaq Tramp administrasiyasının təpkisinin "həddindən artıq həssas" olması qənaətinə gəlib, lakin təhlükənin olduğunu danmayıb. Bu qaynağın sözlərinə görə, "Qüds" qüvvələrinin başçısı Qasim Süleymani İraqdakı tərəfdarlara bildirib ki, tezliklə ABŞ-la münaqişə olacaq. "Hazırkı vəziyyəti hər iki tərəfin mümkün qarşıdurmaya hazırlıq dövrü kimi xarakterizə edəcəyəm, - deyə ABŞ hökumətinin rəsmi nümayəndəsi olan ikinci mənbə bildirib. - Amma təhdid təsvir olunduğu kimi labüd olmaya bilər". Mənbənin sözlərinə görə, administrasiyanın addımları Birləşmiş Ştatların İran hökumətinə hərəkətləri üçün məsuliyyət daşıyacağını bildirmək yoludur.

Vəziyyətlə tanış olan üçüncü hökumət rəsmisi administrasiyanın bu şəkildə cavabını belə izah edib: "Bu, aydın bir mesaj göndərmək və gərgin vəziyyətdə qeyri-müəyyənliyi aradan qaldırmaq üçündür. Biz bölgədəki böyük imkanları nümayiş etdiririk". İranın xüsusi niyyətləri müzakirə predmeti ola bilər, amma "Qüds" qüvvələrinin İraq müharibəsi dövründə ölümcül səmərəlilik nümayiş etdirdiyi məlumdur, o, ABŞ qüvvələrinə nəzartində olan qruplar vasitəsilə zərbə vurmaq qabiliyyətinə malikdir. Dövlət Departamentinin verdiyi məlumata görə, İraqdakı İran dəstəkli döyüşçülər 2003-2011-ci illərdə təxminən 603 ABŞ əsgərini öldürüblər. Onların bir çoxu "Qüds" tərəfindən təchiz edilmiş zirehdeşən mərmilərdən həlak olub.

Prezident Tramp hələ vəzifəyə gəlməzdən əvvəl İrana qaşı sərt xətt tutub. Seçki kampaniyasında Tramp "İranın qlobal terror şəbəkəsini tamamilə silmək" vədi verib və onun ilk milli təhlükəsizlik məsləhətçisi olan Maykl Flinn mətbuat brifinqlərinin birində Tehranın "xəbərdarlıq" mərhələsində olduğunu bildirib. Flinnin varisi Makmaster İslam Respublikasına qarşı qətiyyətsiz rəftarına görə prezidentlə əlaqələrini qırıb, amma Con Boltonun təyinatı ilə "quzğunlar"a meydan açılıb. 2018-ci ilin sentyabr ayında ABŞ-ın Bağdaddakı diplomatik missiyası minaatanlardan atəşə tutulduqda, ABŞ personalı yaralayan istənilən hücuma görə "Tehran rejiminin məsuliyyət daşıyacağını" açıqlayan bəyanat verib. Dövlət katibi Mayk Pompeo da İraqdakı diplomatların köçürülməsini elan edərkən "İraqdakı işçilərinə və qurumlarına hücum etmək üçün xüsusi təhdidlər"dən söz açıb.

"Wall Street Journal" qəzetinin yazdığına görə, Bolton Müdafiə Nazirliyi rəsmilərindən - hərbi planlaşdırıcılardan, hadisəyə cavab olaraq, İrana hücum ehtimalına dair variantları təqdim etmələrini istəyib. Bundan sonra hücumlar baş verməyib, amma ABŞ nüvə razılaşmasından uzaqlaşdıqdan sonra Tramp administrasiyası və İran arasında gərginlik artıb. Son həftələrdə administrasiya İslam Respublikasına qarşı sanksiyaları daha da sərtləşdirib, bir sıra ölkələrin İran xam neftini ABŞ sanksiyalarına məruz qalmadan almasına qadağa qoyub və İslam İnqilabı Keşikçiləri Korpusunu (SEPAH) xarici terror təşkilatı kimi tanıyıb. Mənbələr "The Daily Beast"-ə bildiriblər ki, aprel ayında SEPAH-ın xarici terror təşkilatı kimi tanınma qərarının qəbul edilməsi, böyük ehtimalla, həftəsonu baş vermiş hadisələrə, növbəti gərginliyə səbəb olub.

İran rəsmiləri yaxın vaxtlarda nüvə silahının istehsalında zəruri olan əsas komponentin - uran yanacağının zənginləşdirilməsini məhdudlaşdırmaq üçün nüvə razılaşması ilə bağlı öhdəliklərdən uzaqlaşacaqlarına eyham vurublar. ABŞ dövlət katibi Pompeo belə bir vaxtda İraqa sürpriz səfər edib. Pompeo İran təhdidi ilə əlaqədar kəşfiyyat mövzusunda ətraflı məlumat verməyib: "Bu, İraq hökumətinə inanılmaz dərəcədə vacib olan İŞİD əleyhinə kampaniyanı davam etdirən amerikalı qüvvələri geri çəkmə cəhdidir". İran və SEPAH üzvü, ekspert Afşon Ostovar deyib ki, iranlı liderlər gözləmə mövqeyi tutub, lakin Ağ Evin təzyiq kampaniyası bəzi daxili siasi dalğalanmalara gətirib çıxarır: "Məncə, İranda bəziləri, xüsusən SEPAH-ın bəzi üzvləri indi geri çəkilmək istəyir. Ancaq İran liderləri səbrli olmağa davam edir. Bununla belə, İrana təzyiq hər zaman əlavə sanksiya, ritorika və ya poz verməilə artdıqda, mən İran liderlərinin səbrinə və onların ABŞ-a qarşı həddi keçmə tərəfdarlarının əl-qolunu bağlama qabiliyyətinə şübhə edirəm". Bu yazıda, qeyd olunanlardan göründüyü kimi, ABŞ və İran arasında savaş an məsəlisidir.

***Nahid SALAYEV***

**İşğalçı Ermənistanın yaşadığı ən böyük problemlərdən biri, əvvəlki kimi, bu ölkədən köçüb gedənlərin sayının davamlı olaraq artması ilə bağlıdır. Ölkədə məlum hakimiyyət dəyişikliyindən sonra bu istiqamətdə vəziyyətin düzələcəyinə dair vədlər verilsə də, real vəziyyət yenə bunun tamam əksini göstərir. Məsələ ilə bağlı "armenianreport" saytı da yazır ki, Nikol Paşinyan iqtidarı miqrasiya ilə bağlı durumda hansısa yenilik edə bilməyib:**

# Azərbaycandan Ermənistana köçmüş ermənilərin tükürpədən peşmançılıq hekayələri...

## *"Yerli və gəlmə ermənilər iki müxtəlif xalqlardır"*

"Ötənilki "məxməri inqilab" erməni cəmiyyətində yeni hakimiyyətdən müəyyən gözləntilər doğurmuşdu. Bu tamamilə təbii idi, iki onillikdən çox bir zaman içərisində biz yoxsulluqdan və hüquqsuzluqdan yorulmuşduq. Küçələrə axışıb Paşinyana dəstək verən insanlar həyat səviyyəsinin və keyfiyyətinin yüksəlməsinə səbəb olacaq daha effektli və ədalətli dövlət strukturunun yaradılmasını gözləyirdilər. Amma budur, inqilabdan bir il keçib, fərəhləndirici heç nə baş verməyib. Əksinə, insanlar gələcəyə olan-qalan ümidlərini də itiriblər. Xüsusilə, cəmiyyətin yaralı yeri olan ölkədən işçi axını daha da güclənib.

Ermənistan Milli Statistika Komitəsinin bu il aprelin 1-nə olan məlumatına görə, ötən ilin analoji dövrünə nisbətdə əhalinin sayı yenə azalıb. İl ərzində Ermənistanda əhalinin 11 min nəfər azalması baş verib. Məxməri inqilabın qələbəsinə və Köçəryan-Sarkisyan cütlüyünün cinayətkar-oliqarx və klan rejiminin getməsinə baxmayaraq, insanlar ölkəni niyə tərk edir? Cavab birmənalıdır - inqilabdan sonra onları bürüyən məyusluqdan. Axı, inqilabdan keçən bir il ərzində insanların həyatında yaxşıya doğru heç nə dəyişməyib. Çətin ki, yaxın vaxtlarda da nə isə dəyişsin, bunun heç bir işartısı yoxdur. Heç olmasa, gələcəkdə də. Ancaq Paşinyanı və onun dəstəsinin üzvlərini danışdırsan, bildirəcəklər ki, Ermənistanı postsovet məkanında inkişaf etmiş qabaqcıl ölkələrdən birinə çevirəcək iqtisadi inqilab artıq başlayıb. Ola bilsin, baş nazirin rezidensiyasının pəncərəsindən baxanda hansısa müsbət dəyişikliklər nəzərə çarpır, amma biz - sadə adamlar onu zəif hiss edirik. Axı, onları necə hiss edək ki, işsizlik nəinki azalıb, əksinə hökumətin düşünülməmiş qərarları ucbatından daha da artıb. "Köhnə" və "təzə" işsizlər çıxılmaz vəziyyətə görə ölkəni tərk edir, qastarbayterə çevrilirlər".

Bununla yanaşı ona da diqqət çəkilir ki, xaricdən, əsas etibarı ilə Suriyadan köçürülüb gətirilən ermənilər hesabına da vəziyyəti dəyişmək mümkün olmayıb. Qeyd olunur ki, Suriya erməniləri həm Ermənistandan, həm də köçrüldükləri Dağlıq Qarabağdan qaçırlar. Bildirilir ki, Ermənistan hökuməti suriyalı soydaşlar üçün imtiyazlı şəraitlər yaratmağa çalışsa da, bu artıq heç bir nəticə vermir. Suriyada yaşanan müharibə üzündən ölkəni tərk edərək Ermənistana üz tutan ermənilərin çoxsaylı problemləri hələ də həllini tapmır. Hazırda ölkədən qaçan Suriya ermənilərinin əksəriyyəti xarici ölkələrdə miqrant kimi yaşayır. Ermənistan qaçqınları aldadaraq böyük nəvazişlə qarşılasa da, suriyalı ermənilər sonradan aldandıqlarını başa düşürlər. Əhalisinin üçdə biri yoxsulluq həddində yaşayan bir ölkədə onların həyatı ağır sınağa çevrilir.



Digər tərəfdən belə görünür ki, yerli ermənilərin Suriyadan gələnlərə münasibəti getdikcə pisləşdiyindən də sonuncular ölkəni tərk etməyə üstünlük verir. Yeri gəlmişkən qeyd edək ki, təkcə Suriya erməniləri yox, Azərbaycandan köçüb gedən ermənilər də üzləşdikləri vəziyyətdən narazılıq edir. Məsələn, Dağlıq Qarabağ müharibəsinin aktiv olduğu illərdə Azərbaycandan Ermənistana köçən erməni qadınlardan biri ölkədə onlara qarşı kəskin nifrət və ayrıseçkilik, ağır iqtisadi-sosial şərait barədə danışarkən mediaya açıqlamasında deyib: "Mən Ermənistana gələndə heç də xoş olmadı, çünki özümün və ailəmin ünvanına xoşagəlməz ittihamlar səsləndirildi. Oğlumu dəfələrlə döyüb, onun Azərbaycan ermənisi olduğunu dedilər. Azərbaycan ermənisi olanda nə olar? Onlara dünyada yermi yoxdur? Mən bunu deməkdən utanmıram, özüm də erməniyəm, lakin onlar bizi sevmir və heç vaxt da sevməyib. Ermənistanda buna görə çox qala bilmədim. Moskvaya getmək və oradan ABŞ-a miqrasiya üçün müraciət etmək qərarına gəldim. Ərim işləmirdi, iş tapmırdı. Moskvaya getdiyim üçün məni satqın adlandırdılar. Mən satqınam, çünki 16 yaşlı oğlumu ərimlə birlikdə döyüşməyə göndərmədim. Hə, mən buraxmadım, qan və ölüm istəmədim. Mənə dedilər ki, sənin nəvə-nəticələrin sağ qalacaq. Bəs savaşmaq nəyə lazımdır? Əgər oğlum və ya ərim ölsə, nəvələrimi harada görəcəyəm?".

Ümumiyyətlə, Azərbaycandan Ermənistana köçən ermənilərin acınacaqlı vəziyyətdə yaşaması artıq heç kimə sirr deyil. Belə ki, yataqxanada yaşayanlar heç bir şəraitin olmaması, hökumətin laqeydliyi, büdcədən və beynəlxalq təşkilatlardan ayrılan pulların mənimsənilməsi kimi hallardan danışıblar. Erməni qadınlardan birinin sözlərinə görə, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandan gələnlərin yaşadığı yataqxananın təmiri üçün ayırdığı 5 milyon mənimsənilib və nəticədə heç bir yardım göstərilməyib. Erməni qadın, həmçinin, ölkə rəhbərliyinin Azərbaycandan gələnlərin ölkəni tərk etməsinə qadağa qoyduğunu bildirib. Belə ki, bu barədə hökumət bütün səfirliklərə müvafiq göstəriş verib. Bunun səbəbi isə Azərbaycandan gələn ermənilərə görə verilən humanitar yardımların mənimsənilməsidir. Erməni qadın son cümlələrində isə öz xalqı ilə azərbaycanlıları müqayisə edib: "Biz erməni olsaq da, özgəyik. Yerli və gəlmə ermənilər iki fərqli xalqdır. Burda çox yalan danışırlar. Mən həyatım boyu burdakılara etibar etmərəm. Çox qəribə ermənilərdir. Hərçənd, Suriyadan gələn ermənilər də heç vaxt düzgün insan deyillər, ancaq yerli ermənilərdən daha çox onlarla aramızda bir yaxınlıq var. Onlar yerli ermənilərlə birlikdə yaşaya bilməzlər. Aci bir həqiqət var. Gəlin sizə onu da deyim. Nə Azərbaycandan, nə də Suriyadan gələnlər heç vaxt burada yaşamayacaqlar. Çünki burda insanlar qəddardırlar. Mən sonradan başa düşdüm ki, yerli ermənilərə problemlərini danışmaq olmaz. Azərbaycanlıya öz problemini danışsan, deyəcək "sənə necə kömək edə bilərəm?" və kömək də edəcək. Yox, problemini erməniyə desən, o bundan istifadə etməyə və səni tapdalamağa çalışacaq".

Məhz belə vəziyyət erməni cəmiyyətində qütbləşmənin sürətlə dərinləşdiyini göstərir.

***Tahir TAĞIYEV***

# Erməni deputat Ermənistan ərazisinin "təhlükəli dərəcədə" boşaldığını etiraf edir...

**Ermənistan təhlükəli dərəcədə boşalıb. "Trend"in erməni KİV-inə istinadən məlumatına görə, bunu ölkə parlamentinin deputatı Arman Babacanyan deyib.**



O bildirib ki, insanların ölkəni kütləvi tərk etdiyi bir vaxtda həyat səviyyəsinin yaxşılaşmasından danışmaq çətindir: "Hakimiyyət dəyişikliyindən sonra ölkədə bir çox problemlər qalmaqdadır və bu da insanları ölkədən getməyə vadar edir. Miqrasiya "qeyri-real müharibə"dir və ölkənin zəifləməsinə gətirib çıxaran real müharibəyə çevrilə bilər". Statistik məlumatlara əsasən, 2019-cu il aprelin 1-dək Ermənistan əhalisi 2,962 milyon nəfər olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 7,8 min nəfər azdır.

# İrəvanda yüksək ABŞ diplomatından "Azərbaycanla sülhə gəlin" çağırışı - Tramp-Paşinyan görüşü barədə sual cavabsız qaldı...

**ABŞ Dövlət Departamentinin rəsmisi Corc Kent İrəvanda keçirdiyi mətbuat konfransında maraqlı açıqlamalar verib. O bildirib ki, ABŞ qonşuları ilə sülh şəraitində yaşayan Ermənistanla əməkdaşlıqda maraqlıdır. ABŞ diplomatına Paşinyan-Tramp görüşü barədə müzakirələrin aparılıb-aparılmadığı ilə də bağlı sual verilib.**

### *Yeganə Hacıyeva: "Bu, əslində, sadəcə bir tövsiyə deyil, eyni zamanda, Nikol Paşinyan hökumətinin qarşısına əməkdaşlıqla bağlı qoyulan vacib şərtdir"*

Diplomat Baş nazir və digər yüksək çinli məmurlarla görüşdə geniş spektri əhatə edən məsələlər ətrafında fikir mübadiləsinin aparıldığını deyib. Ancaq maraqlıdır ki, ABŞ və Ermənistan rəhbərlərinin görüşünün nəzərdə tutulub-tutulmadığı ilə bağlı suala cavab verməkdən yayınıb. Qeyd edək ki, Ermənistanla ABŞ arasındakı danışıqlar son vaxtlar yalnız Departament rəsmiləri səviyyəsində aparılır. Artıq bir neçə belə görüş keçirilib. Diplomatın keçirdiyi mətbuat konfransından iki vacib nəticəni çıxarmaq olar. ABŞ Ermənistana açıq şəkildə deyir ki, qonşularla sülhə gəlsin. Təbii ki, burada qonşu deyiləndə Azərbaycan nəzərdə tutulur. Bənzər bəyanatı yüksək çinli ABŞ rəsmisi Bolton da İrəvana etdiyi səfər zamanı səsləndirmişdi. İkinci vacib məqam isə budur ki, Tramp hələ də Paşinyanla görüşmək istəmir və ABŞ, ümumiyyətlə, Ermənistanla yüksək səviyyədə əlaqə qurmaqda maraqlı deyil. Bu qənaətləri nə dərəcədə əsaslı saymaq olar?

**Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Nikol Paşinyan hakimiyyətə gələndən sonra ABŞ-ın onlarla münasibətində yaxın qonşularla mehriban şəraitdə yaşamaq kimi tələbi prioritet təşkil edir:** "Biz bu qeydi Trampın Paşinyana müstəqillik günü ilə bağlı ünvanladığı təbrik məktubunda da oxuduq. Bunun ardınca Boltonun fikirlərində də buna rast gəldik. Bu da Departament rəsmisinin dedikləri. Bu, əslində, sadəcə bir tövsiyə deyil, eyni zamanda, Nikol Paşinyan hökumətinin qarşısına əməkdaşlıqla bağlı qoyulan vacib şərtdir. Ermənistan bunun fərqinə varır və bilir ki, söhbət nədən gedir. Hesab edirəm ki, ABŞ bu şərtin arxasında sona qədər duracaq. Nikol Paşinyanın Tramp tərəfindən qəbul edilməməsi isə dəqiqdir. Bu, yaxın zamanlarda nəzərdə tutulmadığına görə ABŞ rəsmisi İrəvanda ona bu yöndə verilən sualı cavabsız buraxıb. Bunun səbəbi də bəllidir. Çünki Paşinyan hakimiyyətə gələndən sonra ard-arda çoxlu səhv buraxıb. Bu səhvlər yalnız Dağlıq Qarabağla bağlı məsələlər ətrafında gedən müzakirələrdə buraxılmayıb. Bir çox başqa detallar da mövcuddur. Burada daxili faktorlar da var. ABŞ görür ki, demokratiya şüarı altında hakimiyyətə gələn Paşinyan, əslində, başqa fəaliyyətlə məşğuldur. Artıq görünür ki, korrupsiya ilə barışmaz adam imici yaradan Paşinyanın öz ailəsinin adı korrupsiyada hallanır.



Onun həyat yoldaşının adı 1,5 milyardlıq korrupsiya qalmaqalında hallandı. Qısa bir müddət üçün bu qədər varidatı toplamaq doğrudan da təəccüb doğurur. Bunu çox ciddi qurumlar təqdim edib. Avropa Birliyinin rəsmi sənədlərində bu məlumat qeyd olunub".

Politoloqun sözlərinə görə, Paşinyanın özünü bu tərzdə göstərməsi ABŞ-ın etibarını tamamilə sarsıdıb: "Gəlin Nikol Paşinyanın son üç ayda qəbul etdiyi qərarlara baxaq. İfadə azadlığının boğulması istiqamətində qərar qəbul edib. Söhbət sosial medianın nəzarətə götürülməsi ilə bağlı addımların atılması və bu istiqamətdə yeni qanunun qəbul ediləcəyindən gedir. ABŞ rəhbərliyinin Paşinyanı təhlükəli və stabil olmayan siyasətçi kimi qəbul etməsi üçün xeyli əsas var.

Bu dəqiqə Ermənistan hakimiyyəti və ABŞ-dakı erməni lobbisinin can atdığı məsələlərdən biri Paşinyanın, heç olmasa, ABŞ-ın dövlət katibi səviyyəsində qəbul edilməsidir. Heç buna da nail ola bilmirlərsə, deməli, Trampla görüş, ümumiyyətlə, müzakirə mövzusu ola bilməz".

***Məhəmmədəli QƏRİBLİ***

# Erməni təbliğatı Kentin İrəvan səfərini ABŞ-Ermənistan strateji dialoqu kimi qələmə verir...

**ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin müşaviri Corc Kent Ermənistana gedib. Səfər zamanı ABŞ rəsmisi orada bir sıra görüşlər keçirib. ABŞ nümayəndə heyətini Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan qəbul edib.**



*"Bütün bunlar erməni mətbuatının şişirtməsidir və təbliğat məqsədi daşıyır"*

### *Arzuxan Əlizadə: "Bir il əvvəl Ermənistanda hakimiyyət dəyişsə də, ölkənin strateji hədəfləri dəyişməyib"*

Erməni mətubatı Kentin İrəvana səfərini Ermənistan-ABŞ strateji dialoqu kimi təqdim edir. Bunu onunla əsaslandırmağa çalışırlar ki, guya 2018-ci ilin aprel-may hadisələrindən bir il sonra bu görüş baş tutub. ABŞ və Ermənistan arasında iqtisadi artımın dəstəklənməsini və səmərəli idarəetmə məqsədilə 16 milyon ABŞ dolları həcmində maliyyələşməni nəzərdə tutan yardım razılaşmaları imzalanıb. Həmçinin, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi cari il üçün 6 milyon dollar maliyyələşmə nəzərdə tutulan 2-3 il müddətinə yeni təşəbbüs barədə məlumat verib. Bundan vəcdə gələn erməni mətbuatı Kentin səfərini iki ölkə arasında strateji dialoqun göstəricisi kimi qələmə verməyə çalışır.

Onu da qeyd edək ki, Mnatsakanyan görüş zamanı Ermənistan-ABŞ münasibətlərinin kifayət qədər möhkəm olduğunu deyib. İddia edib ki, guya Ermənistan ikitərəfli gündəliyin daha da möhkəmləndirilməsi üçün addımlar atmağı planlaşdırır.

Ermənistanın forpost ölkə olması, hansısa strateji önəmə malik olmaması ortadadır. Ermənistanın hansısa önəmi olsaydı, o zaman Paşinyan ötən bir ildə ölkə iqtisadiyyatının dirçəldilməsi üçün ABŞ-dan böyük maliyyə yardımı cəlb edərdi. Dilənçi payı kimi az miqdarda qrantlar verilməzdi.

Bütün hallarda, Kentin səfərinin Ermənistan-ABŞ strateji dialoqu kimi qələmə verilməsi nə dərəcədə doğrudur?

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Kentin səfərini iki ölkənin dialoqu kimi təqdim etməyin əsası yoxdur.** O bunu bir sıra arqumentlərlə əsaslandırdı: "Məsələ ondadır ki, bir il əvvəl Ermənistanda hakimiyyət dəyişsə də, ölkənin strateji hədəfləri dəyişməyib. ABŞ-ın əsas moderatoru olduğu NATO blokuna və digər təsisatlara yönəlik Paşinyan hakimiyyəti hansısa siyasi addımlar atmayıb. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında və Avrasiya İqtisadi İttifaqında təmsil olunur. Bu təşkilatların hər ikisi Rusiyanın maraqlarına xidmət edir. Ermənistan əsgərləri Rusiyanın egidası altında Suriyada fəaliyyət göstərirlər. Belə olan halda, hansı Ermənistan-ABŞ strateji dialoqundan söhbət gedə bilər?! Təbii ki, bütün bunlar erməni mətbuatının şişirtməsidir və təbliğat məqsədi daşıyır. Bəzi müstəqil erməni ekspertləri də bu məsələdə fərqli düşünürlər. Bir müddət əvvəl Amerikanın Taftsi Universitetinin Fletçer adına Hüquq və Diplomatiya Məktəbinin elmi işçisi Suren Sarqsyan bəyan etdi ki, ABŞ üçün Azərbaycan və Gürcüstan strateji əhəmiyyət kəsb edir. Ermənistan yalnız prioritet bir dövlət statusu daşıyır.

Onun fikrincə, bu münasibətlər Ermənistana İran və Rusiyanın təsirləri səbəbindən çox yaxşı ola bilməz. Ona görə də mövcud reallıqlardan çıxış etmək lazımdır. Mövcud reallıq da ondan ibarətdir ki, Ermənistanda hakimiyyətin dəyişməsi bu ölkəni Rusiyanın forpostu olmasından xilas edə bilməyib. Bu səbəbdən erməni mətbuatında səslənən fikirlər reallığı əks etdirmir. Çünki məlum yanaşma reallıqdan uzaqdır".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "İsrail Azərbaycanın düşməninə bir güllə ilə belə kömək etməyəcək"

*Müharibə təhlükəsi artdıqca, Azərbaycanın İsraildən aldığı silahların Ermənistanda şok effekti də çoxalır...*

**Hərbi sahədə gücünü davamlı olaraq artıran Azərbaycan üçün prioritet məsələlərdən biri ordusunu ən müasir silah və texnika ilə təmin etməkdir. Bu istiqamətdə atılan addımlar öz müsbət nəticəsini verib və belə vəziyyətdə Azərbaycan işğalçı Ermənistan üzərində artıq əzici hərbi üstünlüyə malikdir.**

Proseslərin gedişi göstərir ki, Azərbaycan qarşıdakı dövr ərzində də yeni hərbi texnika alışını davam etdirəcək və işğalçı Erpmənistanda narahatlıq yaradan ən böyük məqamlardan biri də məhz bununla bağlıdır. Məsələn, dünyada müasir hərbi texnikanın istehsalı baxımından ön sıralarda dayanan İsraildən Azərbaycanın silah alışı Ermənistanda kifayət qədər böyük narahatlıq və qorxu ilə qarşılanır. Bunu Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın İsrailin Azərbaycana silah satışına dair məsələyə münasibəti də aydın göstərir.

Erməni nazir qeyd edir ki, Azərbaycanla işbirliyi zamanı İsrail üçün ticarət predmeti olan şey erməni xalqı üçün ölüm silahıdır: "Bizim İsrail silahları ucbatından itkilərimiz var. İsrail bilir ki, biz buna necə yanaşırıq". Xatırladaq ki, bundan əvvəl də İrəvan İsrailin Azərbaycana silah satışına etirazını bildirib. Amma Təl-Əviv bu narazılıqların əhəmiyyətsiz olduğunu bildirərək, Azərbaycanla silah ticarətinin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb. Ermənistanın özünə isə İsrail silah satmır. Bunun əsas səbəblərindən biri İsrailin Azərbaycanla münasibətləri, digəri isə İrəvanın bahalı İsrail texnikasını almaq üçün pulunun olmamasıdır. Məhz belə vəziyyətdə Azərbaycan-İsrail hərbi əməkdaşlığının genişlənməsi Ermənistanda böyük qorxu ilə qarşılanır. İsrail müdafiə nazirinin keçmiş müavini Efraim Snenin belə bir vaxtda "Stmegi.com" saytına açıqlamasında səsləndirdiyi fikirlər isə İrəvanın təlaşının daha da artacağını deməyə əsas verir. Onun sözlərinə görə, İsrail Ermənistanın onunla münasibətlərini düzəltmək istəməsinə hazırdır, amma bir şeyi anlamaq lazımdır ki, İsrail Azərbaycanın düşməninə bir güllə ilə belə kömək etməyəcək: "İsrail Azərbaycan əleyhinə istifadə oluna biləcək hər hansı bir şeyi Ermənistana tədarük edə bilməz. Bizim mövqeyimiz budur. Əminəm ki, hökumətimizdə heç kim o qədər də axmaq deyil ki, bunu anlamasın. İsrail, hətta Azərbaycanın düşməninə, milliqram da olsun, kömək etməyəcək. Biz müttəfiqik, biz qardaşıq".

"İsrail hansı müasir silahları Azərbaycana təklif edəcək" sualına Sne Təl-Əvivin belə məsələləri müzakirəyə çıxaracaq qədər axmaq olmadığı cavabını verib: "Mən silahlardan yox, yalnız ikitərəfli münasibətlərdən danışa bilərəm. Mən ikitərəfli münasibətləri yaxşı kimi dəyərləndirirəm, amma bu münasibətlər daha da yaxşılaşmalıdır. Biz gərək dostluğumuzu və əməkdaşlığımızı mədəniyyət və elm sahəsində də genişləndirək, yalnız müdafiə sferası ilə məhdudlaşmamalıyıq. Siz bilirsiniz ki, Azərbaycanı hər il çoxlu sayda İsraildən olan turist ziyarət edir. İsrail turistləri Azərbaycanı ziyarət edərkən onun irs və mədəniyyətinin nə qədər zəngin olduğunu görürlər. Mən universitetlər arasında akademik mübadilə proqramlarının reallaşdırılmasını təklif edirəm. Təkliflər çoxdur. Biz Azərbaycanla dostluğu qiymətləndiririk. O, bizə çox lazımdır".

Qeyd edək ki, hələ məlum aprel döyüşləri zamanı Azərbaycan İsraildən aldığı silahlardan tank əleyhinə "Spike" raketini və "Harop" pilotsuz uçan döyüş sistemini tətbiq edib. Həmin vaxt bu silahlar vasitəsilə ermənilərin xeyli canlı qüvvəsi məhv edilib. Məhz o vaxtdan Azərbaycanın İsraildən almağa və digər silahlar Ermənistan üçün əsl kabusdur. Elə indinin özündə də İrəvanı ciddi narahat edən əsas məqamlardan biri İsrailin tutduğu mövqe fonunda Azərbaycana silah satışını davam etdirməsi və həmin silahların yeni Qarabağ savaşında tətbiq edilə biləcəyi ilə bağlıdır. Belə silahlardan biri isə Azərbaycanın malik olduğu "LORA" operativ-taktiki raket kompleksləridir. Yayılan məlumata görə, Azərbaycan tezliklə bu raketlərin yeni partiyasını da ala bilər.

Xatırladaq ki, "LORA" kompleksləri İsrailin istehsal etdiyi ən müasir operativ-taktiki raketlərdir. Bu raketlərin işlənib hazırlanmasını "İsrael Aircraft İndustries" korporasiyası həyata keçirib, istehsalçı isə "İsrael Aerospace İndustries" korporasiyasıdır. Raketlər hermetik bağlı nəqliyyat-buraxılış konteynerlərində yerləşdirilir və səhra şəraitində saxlama müddəti 7-10 ildir. Kompleks dörd buraxılış-nəqliyyat konteynerindən ibarət paket halında daşınır. Həm təkərli şassilər üzərində, həm də gəmilərdə quraşdırmaq mümkündür. Bu raketlər düşmən ərazisinin dərinliklərində infrastruktur obyektlərini, hərbi bazaları, Hava Hücumundan Müdafiə batareyalarını və digərlərini yüksək dəqiqliklə məhv etmək üçündür. Raketin döyüş başlığı 570 kiloqramdır. Öz göstəricilərinə görə "LORA" ABŞ-ın ATACMS operativ-taktiki raketlərinə və Rusiyanın "İsgəndər-E" operativ-taktiki raketlərilə eyni sinif raketlər hesab edilir. Türkiyə və Hindistanın İsraildən bu raketləri almağa maraq göstərdiyi haqda məlumatlar var, lakin bu sövdələşmələr baş tutmayıb. Ona görə də Azərbaycan İsraildən "LORA" raketlərini alan ilk ölkə hesab edilir.

"LORA" raketlərinin uçuş məsafəsi 400 kilometrə yaxındır və onlar hədəfi 10 metr dəqiqliklə vurur. Raketlər hazırlıqsız döyüş mövqelərindən də buraxıla bilər. Yeri məlum olan istənilən obyekt hücum barədə qərar veriləndən 10 saniyə sonra "LORA" tərəfindən vurulur. "LORA" raketləri uçuş trayektoriyasına görə ballistikdir, ancaq raketdən müdafiə sistemlərindən yayınmaq üçün proqramlaşdırılmış və ya ixtiyari manevrlər edə bilir. Bu səbəbdən onu kvaziballistik raket də adlandırırlar. Raket həm GPS sistemi, həm operator tərəfindən idarə edilə bilər.

Xatırladaq ki, bundan əvvəl Azərbaycan İsraildən 150 kilometr mənzilli "Extra" operativ-taktiki raketlərini alıb. Bu raketlərin bir hissəsi Naxçıvanda yerləşdirilib və oradan Ermənistan paytaxtını vurmaq imkanındadır.

Bununla yanaşı, artıq o da məlumdur ki, İsrailin "Rafael" şirkəti Azərbaycanın döyüş helikopterlərini modernizə edilmiş "Spike" raketləri ilə silahlandırır. Şirkətin regional direktoru Şimon Naymen bu xüsusda qeyd edib: "Biz Azərbaycanda hərbi helikopterlərdə modernizə edilmiş "Spike" raketlərinin quraşdırılmasını həyata keçiririk. Bu raketlərin fəaliyyət radiusu 30 kilometrdir. Bu isə o deməkdir ki, modernizə edilmiş "Spike" raketi ilə silahlanmış hərbi vertolyot düşmən üçün əlçatmaz olacaq. Başqa sözlə, vertolyotlar Azərbaycan nəzarətində olan ərazilərdən düşmənin nəzarəti altında olan ərazilərə dəqiq zərbə endirəcək, bu zaman özü atəş altına düşməyəcək".

Bundan başqa, məlumdur ki, İsrail Azərbaycana "Barak-8" sistemləri də satıb. Bu kompleksləri İsrailin "Rafael" və İAİ hərbi-sənaye şirkətləri birgə istehsal edir. "Barak-8"in iki versiyası, yəni dəniz və quru versiyası mövcuddur. Buraxılış qurğusu 8 raketlə və nəqliyyat-buraxılış konteyneri, habelə radiolokasiya stansiyaları ilə təchiz olunub. Bu, dünyada ən mükəmməl hava və raket hücumundan müdafiə kompleksi hesab olunur. "Barak-8"in əsas özəlliyi onun mürəkkəb döyüş şəraitində 10 kilometr məsafədə bir neçə hədəfi eyni anda vurmasındadır. Bu hədəflər səsdən iti və səs sürətinə yaxın uçan qanadlı raketlər, hədsiz aşağıdan uçan ballistik və kvaziballistik raketlər, təyyarələr, vertolyotlar, idarəolunan bombalar və digərlərindən ibarət ola bilər. Raket buraxılandan sonra inersial naviqasiya sistemindən istifadə edir, hədəfə yaxınlaşanda isə raketi hədəfə yönləndirən aktiv radilokasiya sistemi işə düşür. Döyüş başlığının ağırlığı 25 kiloqramdır. Raketi havada başqa hədəfə yönləndirmək və trayektoriyasını dəyişmək də mümkündür. "Barak-8" İsraildən başqa dünyanın cəmi 4 ölkəsinin silahlanmasında mövcuddur və belə ölkələrdən biri Azərbaycandır. Digər tərəfdən, yayılan məlumatlara əsasən, Azərbaycan İsraildən bir neçə batareya "Dəmir Günbəz" raketdən müdafiə kompleksi alıb. "Dəmir günbəz" idarəolunmayan, 4 kilometrdən 70 kilometrə qədər radiuslu taktiki raketlərdən müdafiə üçün nəzərdə tutulub. İsrailin "Rafael" şirkəti tərəfindən istehsal edilir. Bir "Dəmir günbəz" batareyası 150 kvadratkilometr ərazinin müdafiəsini təmin edir. Sistem düşmən taktiki raketlərini aşkarlayan, uçuş trayektoriyasını müəyyən edən ELM-2084 radarından, atəşin idarəedilməsi mərkəzindən və hərəsində 20 raket olmaqla 3 "Tamir" raket-tutucu komleksindən ibarətdir.

Azərbaycan, bunlarla yanaşı, İsraildən digər çoxsaylı silahlar da alır, eyni zamanda tərəflər birgə silah istehsalını da həyata keçirir. Bütün bunlar o vaxt baş verir ki, Qarabağ savaşının yenilənmə ehtimalı artır. Belə ki, Ermənistan mediası cəbhədə Azərbaycan ordusunun fəallaşdığını, irihəcmli mühəndislik işlərinin aparıldığını iddia edir.

Müşahidələr də göstərir ki, hazırda cəbhədə vəziyyət müharibə həddinə çatıb və işğalçı tərəf Düşənbə razılığına əməl etmək niyyətində deyil. Erməni politoloq Robert Qevondyan bildirib ki, Azərbaycan Düşənbə razılaşmasına əməl edilmədiyini və atəşkəsin zaman-zaman pozulduğunu görəndən sonra aktivləşib: "Bakı gözləyirdi ki, Ermənistanda siyasi dəyişiklik Dağlıq Qarabağ münaqişəsinə yanaşmada da dəyişikliyə səbəb olacaq, lakin İrəvan hərbi ritorikanı dayandırmadı və daha sərt mövqe sergilədi. Buna görə də təmas xəttində aktivləşmə başlandı. Bu, cəbhədə vəziyyətin daha da kəskinləşməsinə gətirib çıxaracaq", - deyə o bildirib.

Politoloq Levon Şirinyan isə qeyd edib ki, baş verənlər regionda Ermənistanın gələcəyi üçün ciddi təhlükədir. O, Azərbaycanın hərbi cəhətdən xeyli gücləndiyini də vurğulayıb. Hesab edilir ki, yaxın tezlikdə Ermənistan Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli üçün müvafiq addımlar atmasa, düşmən cəbhədə kifayət qədər sərt hərbi zərbələr alacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**




**Bu gün türkdilli dövlətlərin qarşısında duran ən aktual məsələlərdən biri türk birliyinə nail olmaqdır. İlkin mərhələdə ortaq türk tarixi dərsliyinin yazılması məsələsi gündəmə gətirildi və hazırda bu dərs vəsaitinin hazırlanması prosesinin başa çatdığı bildirilir. İndi isə ən aktual məsələlərdən biri türkdilli dövlətlərin televiziya kanallarının qarşılıqlı olaraq yayımının həyata keçirilməsidir.**

***Fərəc Quliyev:** "Azərbaycan Televiziyasının bütün türk coğrafiyasında göstərilməsi həm Azərbaycan həqiqətlərinin yayılması, həm də ölkələrimizin daha dərin inteqrasiya olunması, əlaqələrdə olan boşluqların aradan qaldırılması baxımından çox əhəmiyyətli olacaq"*

***Məhərrəm Zülfüqarlı:** "... ümumtürk birliyinə böyük fayda verə bilər"*

***Hafiz Cabbarov:** "Bu televiziyalarda Türk dünyası üçün maraqlı olan proqramlar var"*

# Dünyanın üçdə birini təşkil edən türkdilli ölkələrin teleefir məkanında AzTV və İTV...







Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin II toplantısında Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov bir sıra diqqətçəkən təkliflərlə çıxış edib. Ə.Həsənov bildirib ki, Azərbaycan Televiziyası və İTV turk dövlətlərində yayımlansın.

Bu gün hər iki televiziyanın Türk dünyasında yayımlanması Türk dünyasına, bizim ölkəmizə nə fayda gətirə bilər? Bu televiziyaların Türk dünyası auditoriyasının zövq və tələbatını ödəmək potensialı nə dərəcədə yetərlidir?

**Millət vəkili Fərəc Quliyev bizimlə söhbətində bildirdi ki, həm AzTV-nin, həm də İTV-nin türkdilli ölkələrdə yayımlanması çox müsbət hadisə olardı.** "Bu olduqca mütərəqqi təklifdir, sıradan bir məsələ deyil. Həm türk cümhuriyyətləri arasındakı münasibətlərin, həm də türkdilli əhalinin özünün formalaşmasında bu cür məsələlərin böyük rolu var. Üstəlik də biz həmişə təklif etmişik ki, türk coğrafiyası, türk tarixi, türk ədəbiyyatı bir millət olaraq birgə öyrənilməlidir. Coğrafi baxımdan dağınıq olsaq da, vahid bir məkandan informasiyanın yayılmasına böyük əhəmiyyət veririk. Azərbaycan Televiziyasının bütün türk coğrafiyasında göstərilməsi həm Azərbaycan həqiqətlərinin yayılması, həm də ölkələrimizin daha dərin inteqrasiya olunması, əlaqələrdə olan boşluqların aradan qaldırılması baxımından çox əhəmiyyətli olacaq. Yaxşı olardı ki, digər türkdilli respublikalar da eyni davranış nümayiş etdirib öz televiziyalarından birinin müxtəlif türk ölkələrində yayımını təmin etsinlər" - deyə F.Quliyev qeyd etdi.

**Tarixçi-alim, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, həm Azərbaycan Televiziyası, həm də İTV türkdilli ölkələrdə yayımlana bilər.** O hesab edir ki, bunun üçün sözügedən telekanallarda bu istiqamətdə köklü işlər görülməli və ümumtürk birliyinə xidmət edən proqramların həcmi artırılmalıdır. "Biz əgər türk xalqlarının birliyindən danışırıqsa, siyasi məsələlərdən əvvəl mədəniyyət, tarix, mənəviyyat birliyindən danışmalıyıq. Türk birliyinin formalaşmasında, türkdilli dövlətlər arasında qarşılıqlı mədəni, tarixi əlaqələrin daha yüksək səviyyədə inkişaf etdirilməsində, bu istiqamətdə inteqrasiyanın sürətlənməsində televiziyanın, mətbuatın rolu böyükdür. Mən Əli Həsənovun fikirləri ilə tam şərikəm ki, Azərbaycanın hər iki televiziyası türkdilli ölkələrdə yayımlanmalıdır. Əgər gələcəkdə türkdilli ölkələrin bir-birilə daha da yaxınlaşmasına, beynəlxalq müstəvidə bir-birinə daha böyük dəstək verməsinə nail olmaq istəyiriksə, bizim televiziyaların, onların da televiziyalarının qarşılıqlı şəkildə yayımı təmin edilməlidir. Əlbəttə, Azərbaycan Televiziyasının, yaxud İTV-nin digər türkdilli ölkələrdə yayımlanması bu ölkələr arasında münasibətləri daha da gücləndirə bilər. Bu da olduqca müsbət nəticə əldə etməyimizə gətirib çıxarar".

M.Zülfüqarlı hesab edir ki, adları qeyd edilən Azərbaycan televiziyalarının həm potensial imkanları, həm yaradıcılıq istiqamətləri türkdilli xalqların diqqətini çəkə bilər. O, həmçinin, bildirdi ki, sözügedən telekanallardan hansısa birinin türkdilli dövlətlərdə yayımı reallaşarsa, həmin televiziyalar bu ölkələrin əhalisinin zövqünə, maraqlarına uyğun, onları düşündürən mövzulara da müraciət etməlidirlər. "Türkdilli ölkələrdə yayımlanması təklif edilən Azərbaycan televiziyaları öz işlərində, fəaliyyətlərində dönüş yaratmalıdırlar. Mən televiziya kanalları arasında ayrıseçkilik etmək istəməzdim. Hər ikisi də baxımlıdır. Hesab edirəm ki, həm AzTV-nin, həm də İTV-nin türkdilli ölkələrdə yayımlanmasının çox böyük əhəmiyyəti olardı. Bu gün AzTV çox güclü maddi-texniki bazaya malikdir, yaranma müddəti o qədər çox olmasa da, İTV də xeyli təcrübəyə malikdir. Həm AzTV-nin, həm İTV-nin türkdilli ölkələrdə yayımının həyata keçirilməsi ümumtürk birliyinə böyük fayda verə bilər" - deyə M.Zülfüqarlı bildirdi.

**Tarixçi Hafiz Cabbarov da hesab edir ki, Azərbaycan Televiziyasının və İTV-nin türk coğrafiyasında yayımlanmasının gerçəkləşdirilməsi həm bizə, həm də digər türkdilli dövlətlərə böyük fayda verə bilər.** Azərbaycanın tarixən türkoloji fikrin beşiyi başında durduğunu deyən H.Cabbarov hesab edir ki, türk birliyi ilə bağlı bütün ideyalar Azərbaycandan türk coğrafiyasına yayılıb. "Azərbaycan istər tarixi, istərsə də coğrafi baxımdan bütün Türk dünyası üçün körpü rolunu oynayıb. Bu yalnız coğrafi baxımdan deyil, həm də mənəvi baxımdan belədir. Türk dünyasının həmişə Şərq və Qərb qanadı olub. Qərb qanadını Türkiyə, Anadolu türkləri təmsil ediblərsə, Şərq qanadını Mərkəzi Asiya türkləri təmsil ediblər. Onun mərkəzində duran, ürəyini, beynini təşkil edən isə Azərbaycan olub. Türkçülüyün yaranmasında və inkişafında da təbii ki, Azərbaycan ziyalılarının tarixən çox böyük xidmətləri olub. Bu da onu göstərir ki, üzərinə götürdüyü bu missiyanı Azərbaycan bu gün də uğurla davam etdirir. Azərbaycan televiziyaları da, xüsusən də Azərbaycan Televiziyası və İctimai Televiziya türkçülüyün yayılmasında, türk birliyinin daha da möhkəmlənməsində böyük rol oynayır. Hər iki televiziyada bu barədə çoxlu veriliş yayımlanır. Düşünürəm ki, həm Azərbaycan Televiziyasının, həm də İctimai Televiziyanın bütün türkdilli ölkələrdə yayımlanmasının, bütün mənalarda, faydası əvəzsiz olacaq. Çünki bu televiziyalarda Türk dünyası üçün maraqlı olan proqramlar var" - deyə H.Cabbarov qeyd etdi.

***İradə SARIYEVA***

# Ceyhun Bayramov məktəblərdə daha bir əhəmiyyətli dəyişiklik layihəsinin anonsunu verdi

**Son illər orta ümumtəhsil məktəblərində mövcud olan əsas problemlərdən biri psixoloji xidmətin aşağı səviyyədə olmasıdır. Məlumdur ki, məktəblərin müəyyən bir qismində bu istiqamət normal şəkildə qurulsa da, bəzi məktəblərdə psixoloqların fəaliyyəti ya çox zəifdir, ya da ümumiyyətlə şagirdlərə bu xidmət göstərilmir.**



*"Son illər ərzində Təhsil Nazirliyi tərəfindən orta məktəb psixoloqlarına xüsusi qayğı göstərilir"*

## *Kamran Əsədov: "Psixoloqun ştat vahidinin müəyyən olunması psixoloji işin daha yaxşı görülməsində bir motivasiya vasitəsi olacaq"*



Bu da şagird-müəllim, müəllim-valideyn münasibətlərinin formalaşmasına ciddi əngəl törədir. Bu sahədəki mövcud problemin aradan qaldırılması üçün lazımi tədbirlər həyata keçiriləcək.

Təhsil naziri Ceyhun Bayamov bildirib ki, məktəblərdə psixoloji xidmət təkmilləşdiriləcək. "Məktəblərdə psixoloji xidmətin təkmilləşdirilməsi, psixoloji öyrənmə mühitinin ölçülməsi və yaxşılaşdırılması ilə bağlı tədbirlərin görülməsi qarşıda duran hədəflərdəndir".

Nazir, həmçinin, vurğulayıb ki, müasir zamanda şagirdlərin zərərli informasiyalara çıxışının asanlaşması təhsil sistemi qarşısında əsaslı çağırışlar yaradır: "Bu baxımdan təhsil sistemində çalışan rəhbər şəxslərin və təhsilverənlərin ailələrlə sıx əməkdaşlığı olduqca vacibdir".

**Tanınmış təhsil eksperti Kamran Əsədov bizimlə söhbətində qeyd etdi ki, nazirin bu məsələyə reaksiya verməsi mövcud problemin aradan qaldırılmasına səbəb olacaq.**

"Ümumiyyətlə, təhsil sahəsində olan problemlərə nəzər salsaq, onlardan biri, bəlkə də ən aktual olanı orta məktəblərdə psixoloji xidmətin zəifliyidir. Son illər bununla bağlı bir çox tədbirlər görülür. Görülən bu tədbirlər nəticəsində artıq orta məktəblərdə bu sahənin adı var, bircə qalır doğru-dürüst fəaliyyəti. Təəssüf ki, orta məktəblərdə direktor və psixoloq bu sahəyə hələ də dırnaqarası yanaşır. Araşdırmalarıma görə, orta məktəbdə psixoloji xidmətin zəif olması bir çox səbəblə bağlıdır. Birincisi, bu sahənin yeni olmasıdır. Yəni orta məktəbdə psixoloq ştatı hələ tam oturuşmayıb və cəmiyyət tam şəkildə maariflənməyib. Valideyn hələ tam fərqinə vara bilmir ki, psixoloqun orta məktəbdə işi nədən ibarətdir. Ona görə də maariflənmə işi düşünürəm ki, daha da geniş formada aparılmalıdır. İkinci bir tərəfdən, psixoloq ştatının olması, ancaq psixoloqların psixoloji işi aparması üçün şəraitin olmamasıdır. Çünki heç kimə sirr deyil ki, bir qisim orta məktəbdə psixoloqlar konkret əvəzçiliklə dərs demək və belə deyək də, öz işləri ilə yanaşı, başqa işləri də yerinə yetirmək durumu ilə üz-üzə qalırlar. Bir də psixoloqun ştat vahidinin müəyyən olunması psixoloji işin daha yaxşı görülməsində bir motivasiya vasitəsi olacaq. Çünki ştat vahidi mən düşünürəm ki, qaldırılmalıdır. Orta məktəbdə çalışan psixoloqun aldığı əməkhaqqı da müəllimlərin aldığı məvacibə müəyyən qədər bərabər tutulmalıdır. Bax, bu işlərin həll olunması və eyni zamanda, düşünürəm ki, orta məktəbdə çalışan psixoloqların təlimləri, treninqləri mütəmadı olaraq keçirməsi vacibdir. Çünki orada uşaqlarla yanaşı, yeniyetmələr də mövcuddur. Onların da içərisində elə uşaqlar var ki, konkret olaraq psixoloji rahatsızlıqları ilə yanaşı, həm davranış, ünsiyyət problemləri var, həm də çətin tərbiyə olunan uşaqlardır. Orta məktəb psixoloqları da bilməlidirlər ki, nə formada işləmək lazımdır və onlar bu haqda bilgilənməlidirlər. Bunların hamısı düşünürəm ki, nəzərə alınmalıdır. Xoşagəlməz fakt odur ki, son vaxtlar baş verən intiharların çoxu orta məktəb şagirdləri ilə bağlıdır. Əslində, bunun birbaşa yox, dolayısı ilə əlaqəsi var. Bunu belə deyim, orta məktəb psixoloqu işini görmür və uşaq intihar edirsə, bu bir az etik olmazdı. Valideyn uşağı ilə ünsiyyət və tərbiyə prosesini düzgün qurmaqda çətinlik çəkir, ailədaxili münasibətdə konflikt var və yeniyetmənin özünün fərdi daxili psixoloji problemi mövcuddur ki, onu vaxtında valideyn təyin edə bilmir. Uşaq əgər gündə dörd saat məktəbdə olursa, digər vaxtları evdə olur. Bu sırf psixoloqla bağlı bir məqam deyil. Düşünürəm ki, burada valideynlərin məsuliyyətini bir az da qabartmaq lazımdır. Və hər şeyi də psixoloqdan gözləmək düzgün deyil. Yenə də qeyd edirəm ki, psixoloq sahəsi yenidir və orta məktəbdə çalışan psixoloqların bir qismi ixtisas dəyişəndən sonra bu psixoloji xidməti yerinə yetirməsində biz onlara vaxt verməliyik. Onların təkmilləşdirilməsi istiqamətində əlimizdən gələni etməliyik. Son illər ərzində Təhsil Nazirliyi tərəfindən orta məktəb psixoloqlarına xüsusi qayğı göstərilir. Təlimlər keçirilir, indi də davam etdirilir".

*"Bu gün orta məktəblərdə psixoloji xidmətin təkmilləşdirilməsinə, dünya təcrübəsinin tətbiqinə ciddi şəkildə ehtiyac var"*

K.Əsədovun sözlərinə görə, məsələ burasındadır ki, ştat vahidinin verilməsi bir az zaman alan bir məsələdir. O qeyd etdi ki, nazirlik məktəblərdə psixoloji xidməti təkmilləşdirməklə bu sahədə olan bir sıra problemlərə son qoya biləcək. K.Əsədovun sözlərinə görə, bu gün bir sıra məktəblərdə psixoloq otaqları yoxdur: "Konkret olaraq psixoloqun öz otağı olmalıdır, otaq düzəldilməlidir ki, testlər edilə bilsin, fərdi söhbətlərlə yanaşı, yeri gəlsə ailə ilə də söhbətlər edə bilsinlər. Təəssüf ki, bizim insanlarda hələ psixoloqa ödəniş etmək yanaşması tam formalaşmayıb.

Bizim insanlar yarım saat bir müğənniyə 5 min manat pul saya bilirlər, lakin psixoloq bir saat məşğul olur və istər uşağın, istər ailənin, istərsə də yeniyetmənin problemini həll edir. 25 manata, maksimum isə 30 manata və bu ödənişə baha deyirlər. Biz cəmiyyət olaraq məktəbdə psixoloqu qəbul etmirik və çox pis baxırıq. Övladlarımızın təkcə fiziki inkişafı üçün yox, həm də psixoloji cəhətdən inkişafı üçün işlər görməliyik. Amma, ümumilikdə, orta məktəblərdə psixoloqların fəaliyyəti qənaətbəxş deyil. Hesab edirəm ki, bəli, bu gün orta məktəblərdə psixoloji xidmətin təkmilləşdirilməsinə, dünya təcrübəsinin tətbiqinə ciddi şəkildə ehtiyac var. Bu istiqamətdə də artıq nazirlik səviyyəsində addımlar atılacağı açıqlanıb.

**Sözsüz ki, təkmilləşdirmədən söhbət gedirsə, burada ştat vahidlərinin sayı artırılmalı və ancaq bu sahə üzrə ali təhsili olanlar işə qəbul edilməlidir".**

*İradə SARIYEVA*

# "Azercell" ilə dünyanı daha yaxşı görün

**Valideyn himayəsindən məhrum olan uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını təmin etmək məqsədilə yaradılan "Mobil Göz Klinikası" "Azercell"in dəstəyilə fəaliyyətini davam etdirir.**

Bakıda bir çox internat məktəblərinə, uşaq evlərinə, bölgələrdə məcburi köçkün ailələrinin məskunlaşdığı ərazilərə səfər edən klinika növbəti ödənişsiz göz müayinələrini Şirvan şəhər İcma Əsaslı Sosial Reabilitasiya Mərkəzində təşkil edib. Səfər çərçivəsində 30 uşaq müayinədən keçib.

Klinikanın növbəti səfəri Qaradağ rayonuna təşkil edilib. Səfər zamanı Ümid qəsəbəsində məskunlaşan məcburi köçkün ailələrinin uşaqları klinikanın həkimləri tərəfindən müayinə olunub. 39 uşaq müayinədən keçib, onlara lazımi müalicələr təyin edilib, eynəklər paylanıb.

**Qeyd edək ki, bütün müayinə və müalicə tədbirləri "Azercell Telekom" MMC-in dəstəyilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir. Təşkil olunan müayinələrdən uşaqlarla yanaşı, aztəminatlı ailələr, məcburi köçkünlər və ahıllar da yararlanır.**

Ölkənin telekommunikasiya sahəsinin lideri "Azercell" sosial təşəbbüsləri və layihələri dəstəkləyən bir şirkət olaraq tanınır. Vurğulamaq istərdik ki, fəaliyyəti boyunca şirkət sosial layihələrə 19 milyon ABŞ dolları dəyərində sərmayə yatırıb.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

**Azərbaycanın təbii sərvətləri içərisində müalicəvi Naftalan neftinin özünəməxsus yeri var. Bu sərvət nəinki ölkədə, hətta bütün dünyada populyardır. Dünyanın bir sıra ölkələrindən müalicə məqsədilə Naftalana gələnlər olur.**

# Xeyli vaxtdan sonra təmizlənmiş Naftalan məlhəmi yenidən apteklərə qayıtdı, ancaq çox baha - 7 manatdan yuxarı qiymətə...



*Səfayə Əhmədova: "Qiymət məsələsinə biz baxmırıq"*

*Adil Qeybulla: "Bu maza tələbat olduğu üçün, qiyməti süni şəkildə artırırlar"*

Apteklərdə həm təmizlənmiş, həm də təmizlənməmiş Naftalan mazı satılır. Hətta bu mazdan uzaq Çində belə müalicə məqsədi üçün istifadə edilir. Təmizlənmiş Naftalan mazı ağ rəngli məlhəm formasında olur. Onun qiyməti təmizlənməmiş Naftalan mazından bir qədər baha olur. Maraqlı olan odur ki, son vaxtlar təmizlənmiş Naftalan mazının qiyməti bahalaşaraq müxtəlif qiymətə satılır. Faktiki olaraq 5-20 qram həcmində olan sözügedən məhsul müxtəlif qiymətlərə satılır. Bir müddət əvvəl təmizlənmiş Naftalan mazının qiyməti 5 manat 20 qəpiyə idisə, son günlər onun qiyməti 7 manata qalxıb. Bir sözlə, müxtəlif qiymətə satılır. Təmizlənmiş Naftalan mazı dəri xəstəliklərində, sümük, oynaq ağrılarının müalicəsində istifadə edilir. Sözügedən mazın birdən-birə bu qədər bahalaşması maraq doğurur. Maraqlıdır, sözügedən mazın qiyməti dərmanların qiyməti ilə bağlı vahid reyestrə salınırmı? Qiyməti niyə belə müxtəlifdir?

**Məsələ ilə əlaqədar Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova ilə əlaqə saxladıq.** O bizə açıqlamasında qiymət məsələsinə nazirliyin baxmadığını dedi: "Qiymət məsələsinə biz baxmırıq. Buna İqtisadiyyat Nazirliyi baxır. Yaxşı olardı ki, həmin qurumla əlaqə saxlayın".

Məsələ ilə bağlı İqtisadiyyat Nazirliyi ilə əlaqə saxlasaq da, buna aydınlıq gətirən olmadı.

**Məsələyə aydınlıq gətirən professor Adil Qeybulla təmizlənmiş Naftalan mazının qiymətinin artmasını süni amillərlə əlaqələndirdi:** "Bir ara dərmanların qiymətinin tənzimlənməsi ilə bağlı müəyyən işlər görüldü. Çalışdılar ki, bəzi dərman qiymətlərini uyğunlaşdırsınlar. Ancaq son vaxtlar bir sıra dərman vasitələrinin qiyməti artır. O cümlədən, təmizlənmiş Naftalan məlhəminin də qiyməti artır. Ola bilər istehsal xərcləri artıb.

Ancaq nəzərə alsaq ki, çox qısa vaxt ərzində Naftalan mazının qiyməti artıb, deməli, burada süni amillər var. O baxımdan bunu düzgün hesab etmirəm. Birdən-birə bu qədər artım anlaşılan deyil. Sadəcə olaraq, qiyməti süni şəkildə artırırlar. Bu maza tələbat olduğu üçün, qiyməti süni şəkildə artırırlar".

***Vidadi ORDAHALLI***

**Erkən yaşda nikaha daxilolma sosial problem kimi aktual mövzulardan biridir. Birmənalı olaraq yetkinlik yaşına çatmayan qızların məcburən nikaha daxilolma halı valideyn tərəfindən uşağa qarşı törədilən zorakılıqdır. Qızlarını erkən yaşda ərə verən ailələr bunu maddi çətinliklə bağlayırlar.**

# Azərbaycanda feodalsayağı ərəvermə...



*"Bu gün qadın-kişi hüquqlarının bərabərliyindən danışırıq, qadınlara bərabər imkanlar, bərabər nəticələr verilməsini tələb edirik, amma qızlarımız..."*

*Fatimə Hacıbəyli: "14 yaşlı qızı məcburi şəkildə yaşlı bir kişiyə ərə verən şəxs qanun qarşısında cavab verməlidir"*

Bəzən mütəxəssislər də hesab edirlər ki, ailədəki sosial durumun zəif olması da erkən nikaha səbəb olur. Ailənin sosial durumu aşağı olduğundan, valideyn övladına lazım olan məktəbli forması, eləcə də məktəb ləvazimatları ala bilmədiyindən, çıxış yolu övladını məktəbdən çıxarmaq olur. Lakin araşdırmalar göstərir ki, maddi çətinlik məsələsi sadəcə olaraq bəhanədir. Maddi vəziyyəti yaxşı olan ailələr də qızlarını erkən yaşda ərə verirlər. Müşahidələrə görə, qızların erkən yaşda ailə qurması "dəb" halını alıb. Bəziləri isə bundan həvəslənir, bunu adi hal kimi qəbul edir, bu "dəb"lə ayaqlaşmağa çalışırlar. Təəssüf ki, bu sonradan cəmiyyət üçün böyük yaraya çevrilir. Qızlarını erkən yaşda ərə verən valideynlər düşünürlər ki, qızımızı erkən yaşda ərə verməsək, daha ərə verə bilməyəcəyik, "evdə qalacaq". Bu da əsas səbəblərdən biridir. Bizim kimi Şərq cəmiyyətlərinin çoxunda qız övladına münasibət birmənalı deyil. Elə ailələr var ki, xüsusilə də qız deyil, oğul övladı olmasını arzulayır. Bu cür ailələrdə qız övladı varsa, tez bir zamanda qızı ərə verməyə can atırlar. Həmçinin, problemin kökündə ənənəvi davranış üsulları dayanır. Xüsusilə də daha çox ucqar rayon və kəndlərdə insanlar ənənəvi stereotiplərdən xilas ola bilmirlər, elə düşünürlər ki, qız uşağı bəlli bir yaşa çatıbsa, keçmişdə olduğu kimi, mütləq ərə verilməlidir, qız onların başını aşağı edəcək nəsə etməyincə, ərə versələr yaxşıdır. Dilimizdə "Qız yükü duz yükü", "Tez evlənənlə tez yuxudan duran qazanar" deyimlərini əldə bayraq edən insanlar erkən yaşda övladlarını ailə sahibi edir və bununla da öz valideynlik borclarını yerinə yetirdiklərini düşünürlər. Onlar övladlarının təhsillərini davam etdirmələrinə deyil, erkən yaşlarda nikaha cəlb edib, ailə qurmalarına üstünlük verirlər. Bu cür erkən nikahlar isə sonradan bir sıra böyük fəsadlara yol açır. Bu fəsadlar isə məişət zorakılığından tutmuş, doğuş zamanı ana-uşaq ölümləri və fiziki-psixoloji çətinliklərlə daha çox müşahidə olunur. Belə hallara normal yaşda evlənənlərlə müqayisədə erkən nikaha girən ailələrdə daha çox rast gəlinir.

Qızların erkən yaşda verilməsi sahəsində işlər görülməsinə baxmayaraq, təəssüf ki, bu problem hələ də yaşanır. Telekanalların birində 14 yaşlı şəhid qızının özündən 44 yaş böyük kişiyə ərə verilməsi haqqında məlumat verildi. Belə ki, Bərdədə yaşayan 14 yaşlı Elza adlı qız 58 yaşlı kişiyə ərə verilib. Şəhid qızı başına gələnlər haqda belə danışıb: "Mən doğulanda anam dünyasını dəyişib. Atam ikinci dəfə ailə qurub. Analığım mənə çox əziyyət verib. Çox zülmlər görmüşəm. 14 yaşım olanda məni tanıdığım bir qadın 58 yaşında kişiyə ərə verdi".

XXI əsrdə 14 yaşlı qızın özündən qat-qat yaşlı insana ərə verilməsi təəssüf doğurur.

**"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, 14 yaşlı qızın özündən 44 yaş böyük kişiyə ərə verilməsi faktı qeydə alınıb:** "Müasir dövrdə belə bir halın qeydə alınması insanı vahiməyə salır. Məktəb yaşlı bir qızın atasından da böyük şəxsə ərə verilməsi kədərlidir. 14 yaşlı qızı məcburi şəkildə yaşlı bir kişiyə ərə verən şəxs qanun qarşısında cavab verməlidir. Məktəb yaşlı qızı erkən yaşda yaşlı bir adama ərə verən şəxs sərt şəkildə cəzalandırılmalıdır".

Həmsöhbətimizin sözlərinə görə, azyaşlıların ərə verilməsinin iki səbəbi olur: "Birincisi, gənc qızlar təhsilə önəm vermir və kiçik yaşlarından ailə qurmağı arzulayırlar. Bir qismi isə tez aşiq olur, tez yetişir, düşünürlər ki, daim eşqməhəbbət olacaq və sairə. Digərləri isə həqiqətən məcburi olaraq zorla ərə verilənlərdir. Onların da bir qismi maddiyyata görə ərə verilir. Yəni oğlanın imkanı yaxşı olduqda valideynlər bu fürsətdən yararlanmağa çalışırlar. İkinci qismi isə ailə yükündən qurtulmaq üçün qızlarını ərə verməyə çalışır. Üçüncü qismi isə elə düşünür ki, qız tez ərə verilsin, namusu, əxlaqı qorunsun".

Ekspert onu da vurğuladı ki, qızlara yüksək təhsil almaq üçün imkan yaradılmalıdır: "Qızlarımız da oğlanlarımızla bərabər inkişaf etməlidirlər. Bu gün qadın-kişi hüquqlarının bərabərliyindən danışırıq, qadınlara bərabər imkanlar, bərabər nəticələr verilməsini tələb edirik. Amma qızlarımız təhsildən yayınıb erkən nikaha gedirsə, bundan necə danışa bilərik? Ona görə də biz bununla bağlı bütün istiqamətlərdə işimizi gücləndirməliyik. Bu hadisənin artmaması, qarşısının alınması üçün əlimizdən gələn hər bir şeyi - ictimai səfərbərlikdən, ictimai qınaqdan tutmuş, qanunlarımızın təkmilləşməsinə və möhkəmlənməsinə qədər bütün işləri etməliyik".

F.Hacıbəyli hesab edir ki, cəmiyyət bu cür hadisələrə qarşı çıxmalıdır: "Yeniyetmə yaşında olan qızlar ailə üzvlərinin, valideynlərin təzyiqi əsasında özlərindən qat-qat böyük kişilərə ərə verilirlər. Bir müddət sonra xasiyyətləri tutmadıqda və ya zorakılığa məruz qaldıqda boşanmağa məcbur olurlar. Boşandıqda isə rəsmi nikahları olmadığından, heç bir mülkiyyət hüququ əldə edə bilmirlər. Bu məsələ bu gün də ciddi problem olaraq qalır".

***Günel CƏLİLOVA***

# Sığorta yığımları artır, sığorta ödənişləri azalır - paradoksal prosesin əsl mahiyyəti...

**Bir sıra ölkələrdə sığorta xidmətləri iqtisadiyyatın aparıcı sektorları sırasında gedir. Həmçinin, iqtisadiyyatda ciddi şəkildə dəyər yaradan sahələrdən hesab olunur. Sığorta sektoru bir xidmət sferası olaraq cəmiyyəti daimi əsasda xoşagəlməz və arzuolunmaz hadisələrdən irəli gələ biləcək zərərlərdən qoruyur.**



## ”Dünyanın bütün ölkələrində bu belədir”

*Fikrət Yusifov: ”Görünür, 2019-cu ilin birinci rübündə əvvəlki ilin eyni dövrü ilə müqayisədə az sığorta halı baş verdiyinə görə ödənişlərin həcmi azalıb”*

İnkişaf etmiş ölkələrdə insanlar digər cəmiyyətlərdən fərqli olaraq, müxtəlif zərərlərin ola bilməsi ehtimalını dərk edərək sığortaya könüllü şəkildə müraciət edirlər.

Bu arada məlum olub ki, bu ilin yanvar-mart aylarında Azərbaycandakı 21 sığorta şirkətinin xətti ilə 201,174 milyon manat məbləğində sığorta haqqı toplanıb. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz çoxdur. Bu ilin yanvar-mart aylarında Azərbaycanda könüllü sığorta növlərinin hesabına 129 milyon 948 min manat sığorta haqqı toplanıb. Ancaq 3 ay ərzində sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 46,234 milyon manat təşkil edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 23,3 faiz azdır.

Məsələ ondadır ki, 2019-cu ilin yanvar-mart aylarında sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 23 manatı ödəniş edilib. Ancaq 2018-ci ilin müvafiq dövründə bu göstərici 31,2 manat olub. Ödənişlərin arasında könüllü sığorta növləri göstəricisi xüsusilə nəzərə çarpır. Belə ki, 2018-ci ilin yanvar ayında bu sığorta məhsulları üzrə ödəniş 17 milyon 992 manat olduğu halda, 2019-cu ilin yanvarında 10 milyon 793 manat təşkil edib.

Maraqlıdır, sığorta yığımları artdığı halda, sığorta ödənişlərinin azalması nə ilə bağlı ola bilər?

**Sözügedən məsələyə aydınlıq gətirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, ödənişlərin azalması və yaxud da artması sığorta hadisəsinin sayından asılıdır:** "İqtisadi nöqteyi-nəzərdən sığorta haqlarının yığılması, sığorta ödənişlərinin edilməsi məsələlərinə yanaşma bir başqa prizmadan olmalıdır. Yəni sığorta haqqı ona görə yığılmır ki, bu, mütləq sığorta ödənişi şəklində kiməsə zorən verilsin. Ancaq sığorta halı baş verəndə bu ödənişlər edilə bilər. Ola bilər ki, bu sığorta yığımları xeyli artsın, amma hansısa sığorta ödənişi edilməsin. Niyə? Ona görə ki, sığorta halı baş vermirsə, o zaman ödənişlərə ehtiyac olmur. O da ola bilər ki, bu gün vətəndaş sığorta ödənişini etsin, sabah hansısa sığorta hadisəsi ilə üzləşsin. Belə olan halda, sığorta şirkəti deməz ki, 100 manat ödəniş etmisən, amma bizim sənə sığorta ödənişimiz 1000 manat olacaq. Burada yanaşma necə olmalıdır? Ödənişlər o halda baş verir ki, sığorta halı yaransın. Görünür, 2019-cu ilin birinci rübündə əvvəlki ilin eyni dövrü ilə müqayisədə az sığorta halı baş verdiyinə görə ödənişlərin həcmi azalıb. Dünyanın bütün ölkələrində bu belədir. Birləşmiş Ştatların Nyu-York şəhərində 2001-ci ilin 11 sentyabrında məlum 2 çoxmərtəbəli bina terrorçular tərəfindən dağıdıldı. Həmin binaların hər ikisi sığortalanmışdı. Sığorta kompaniyası həmin binaların tam dəyərini ödədi. Az qaldı həmin kompaniya özü müflis olsun. Ancaq öz imicini qorumaq xatirinə hardansa borc alıb ödənişi axıra qədər etdi. Ona görə də hesab edirəm ki, Azərbaycanda sığorta haqlarının yığımının artması fonunda, ödənişlərin azalmasında hansısa qəbahət yoxdur".

*Vidadi ORDAHALLI*

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BABAYEV ƏLİŞRƏF AĞABALA oğlu**



22 avqust 1974-cü ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Sabunçu rayonunda yaşamışdır. Sabunçu RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Əliəşrəf Ağabala oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 14 yanvar 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Əliəşrəf Ağabala oğlu 14 yanvar 1993-cü il tarixində Ağdərə rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı götürüldüyü ehtimal olunur.

Babayev Əliəşrəf Ağabala oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV ƏLİPAŞA ADİL oğlu**



13 mart 1973-cü ildə Azərbaycan Respublikasının Dəvəçi (indi Şabran) rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Şabran rayonunda yaşamışdır. Şabran RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Əlipaşa Adil oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 5 fevral 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Əlipaşa Adil oğlu 5 fevral 1993-cü il tarixində Ağdərə rayonunun Çıldıran kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Babayev Əlipaşa Adil oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV ƏLİ-İSGƏNDƏR TEYMUR oğlu**



26 oktyabr 1961-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Əzizbəyov (indi Xəzər) rayonunda yaşamışdır. Xəzər RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Əli-İsgəndər Teymur oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 29 mart 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Əli-İsgəndər Teymur oğlu 29 mart 1993-cü il tarixində Kəlbəcər rayonunun Çərəktar kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Əli-İsgəndər Teymur oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV FAMİL ZAHİDDİN oğlu**



15 dekabr 1966-cı ildə Azərbaycan Respublikasının Qax rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Qax rayonunun Qaşqaçay kəndində yaşamışdır. Qax RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Famil Zahiddin oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 28 avqust 1992-ci ildə Xocavənd rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Famil Zahiddin oğlu 28 avqust 1992-ci il tarixində Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Babayev Famil Zahiddin oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**




# Türkdilli dövlətlərin vahid kino industriyasının yaradılması gündəmdə...

**Tarixən Azərbaycan ümumtürk mədəniyyətinin formalaşmasına xidmət edib və Türk dünyasının birliyi naminə meydana çıxan ideyaların da əsas mərkəzi ölkəmiz, ziyalılarımız, fikir adamlarımız olublar.**

Heç şübhəsiz ki, ümumtürk birliyini daha da möhkəmlətmək üçün qarşılıqlı mədəniyyət layihələri həyata keçirilməlidir. Nəzərə alsaq ki, mövcud variantlar sırasında kino, serial çəkilişləri daha təsirlidir, bu baxımdan türkdilli dövlətlər tərəfindən müştərək kino, serial layihələrinin həyata keçirilməsi vacibdir. Türkdilli ölkələrin ortaq tariximizə, həyat tərzimizə, mədəniyyətimizə dair filmlər çəkməsi zərurətdir. Çünki bu filmlər vasitəsilə biz-birimizin düşüncəsini daha yaxından görə biləik.

Azərbaycan illərdir digər türkdilli ölkələrlə ortaq filmlər, seriallar çəkmək ideyasını gündəmə gətirir. Bu barədə fikirlər dəfələrlə Azərbaycan kinematoqrafları tərəfindən dilə gətirilib. Artıq bu ideya ətrafında digər türkdilli dövlətlər də birləşmək niyyətini ortaya qoyublar. Qazaxıstan təmsilçiləri artıq bu barədə niyyətlərini açıqlayıblar.

Türkdilli dövlətlərin müştərək filmlər və seriallar istehsal etməsinin faydaları haqqında danışan ekspertlər hesab edirlər ki, bu filmlər və seriallar əsasən ortaq tariximizlə bağlı olmalıdır.

**Tanınmış kinorejissor Şamil Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu layihə gerçəkləşərsə, bunun həm ümumtürk birliyinə böyük faydası dəyər, həm də türkdilli ölkələrin kino sənayesinin inkişafına təkan olar.**

"Türkdilli dövlətlərin kino sahəsində də birgə fəaliyyəti ancaq ümumi inkişafa səbəb ola bilər. Bu və ya digər səbəblərdən türkdilli ölkələrin bəzilərinin kinosu inkişaf edib, bəzilərində isə inkişaf zəif gedir. Bu sahədə elə addımlar atılmalıdır ki, ümumkino sanayesi inkişaf etsin. Bu gün kino sahəsində Türkiyə irəlidə olan dövlətdir. Türkiyənin kino sənayesi artıq oturuşub, onun istehsal etdiyi seriallar artıq dünya dövlətlərinə satılır. Orada kino sənayesinin tələblərinə uyğun işlər görə bilirlər. Keçmiş sovet ərazisində olan türkdilli dövlətlərdən də bəziləri bu sahədə irəli gedir, bəziləri geridə qalır. Məsələn, Qazaxıstan bu sahədə bir az irəlidədir. Çünki onlar Hollivudla müəyyən qədər layihələr həyata keçirdilər və orada kino sənayesi bir qədər inkişaf edə bildi. Amma yenə də Türkiyə səviyyəsində deyil. Kino sənayesi ancaq kino çəkib kənara qoymaq deyil, kino sənayesi o çəkdiyin filmlərin yayımını, prokatını təşkil etməkdir. Bu vacib məsələdir. Türkdilli xalqların dil, mədəniyyət, tarix birliyi bu sahənin inkişafına böyük fayda verə bilər".

Ş.Əliyevin fikrincə, ortaq tariximiz, mədəniyyətimizlə bağlı maraqlı filmlər, seriallar çəkmək mümkündür. O hesab edir ki, "Dədə Qorqud" serialını bu üsulla çəkmək olar. "Məsələn, bir neçə il bundan əvvəl "Dədə Qorqud" filminin ikinci dəfə çəkilməsi ilə bağlı möhtərəm Prezidentimiz sərəncam imzalayıb. Prezidentimiz bu filmin çəkilməsinə böyük əhəmiyyət verir. Lakin hələ də bu filmin çəkilməsi reallaşmayıb. Aydın məsələdir ki, bunun səbəbi bizim kino sənayemizin yüksək səviyyədə olmaması ilə bağlıdır. Biz kino sənayesini qurmaq istəyirik. Cənab Prezident bununla bağlı çox vacib sərəncamlar imzalayıb. Kinoya dövlət qayğısı var. Bu da kino sənayesini yaratmaq və kinonu bir incəsənət növü kimi qoruyub saxlamaqdan ibarətdir. Amma kino sənayesinin yaradılması böyük zərurətə çevrilib. Ona görə də bizim kino sənayemiz "Dədə Qorqud" filminin tələblərinə cavab vermədiyi üçün onun çəkilişləri dayandırıldı. Burada maddi-texniki, insan resursları kimi amillər var. Hətta burada yaradıcılıq məsələsi də var. Dədə Qorqud bizim ortaq abidəmizdir. Bu mövzuda müştərək film çəkilməlidir. Türk birliyi, türk mədəniyyəti heç bir mədəniyyətə qarşı deyil, heç bir millətə qarşı çevrilməyib. Orada məqsəd ancaq



*Əkbər Qoşalı: "Türkdilli dövlətlərin ortaq telefilmlərinin, sənədli filmlərinin çəkilməsi, ümumən kino təsərrüfatımızın bir-birinə qaynayıb-qarışması ayrı bir hadisə olardı"*

*Şamil Əliyev: "Türkdilli dövlətlərin müştərək filmlər istehsal etməsi bir zərurətdir"*



ümumdünya mədəniyyətində inkişaf etmək, qaynayıb qarışmaq, digər mədəniyyətlərə və öz mədəniyyətimizə təkan verib inkişaf etməkdir. Türkdilli xalqların mədəniyyətində çox humanist çağırışlar, çalarlar var. Türkdilli dövlətlərin müştərək filmlər istehsal etməsi bir zərurətdir" - deyə Ş.Əliyev bildirdi.

**Azərbaycanda ATATÜRK Mərkəzinin şöbə müdiri, Milli QHT Forumu İdarə Heyətinin üzvü Əkbər Qoşalının sözlərinə görə, belə bir layihə gerçəkləşərsə, bunun bütün ölkələrə faydası dəyər.** "...Heç kəsə sirr deyil ki, ərazi bütövlüyü pozulmuş, elan olunmamış müharibəyə cəlb edilmiş ölkə olaraq bizim belə bir gündəlik telemübadiləyə çox ehtiyacımız var. Türk Şurasının üzvü olan digər ölkələrin də öz həqiqətlərini, problem və uğurlarını yaymaq, turizm axınını gücləndirmək və s. baxımından qazanacaqları az olmayacaq. Bir də, "niyə"siz, "necə"siz bir yanaşma ilə söyləsək, axı biz canıbir, qanıbir qardaşlarıq. Qardaş qardaşını başqaları vasitəsilə deyil, birbaşa tanımalıdır, özü də yaxşı tanımalıdır, ruhubir olmalıdır. İndiki dövrdəsə birbirini yaxından tanımaq önəmli dərəcədə televiziyalardan, virtual aləmdən, İKT-dən keçir.

Bu planda, türkdilli dövlətlərin ortaq telefilmlərinin, sənədli filmlərinin çəkilməsi, ümumən kino təsərrüfatımızın bir-birinə qaynayıb-qarışması ayrı bir hadisə olardı. Çünki filmlərin yaddaşda buraxdığı iz, film qəhrəmanlarının adlarından tutmuş, həyat kredolarının, mübarizələrinin yayğınlaşmasınadək heç bir şey gözardı edilə bilməz. Belə yayğınlaşma bizlər üçün bir neçə mənada önəm ərz edərdi. Həm yabançı axınlara qarşı duruşumuzu gücləndirərik, həm ümumtürk immunitetini qüvvətləndirərik, həm də ortaq dəyərlərimizi təbliğ edər, universallaşdırarıq.

**Bilirsiniz, belə addımlar müəyyən fikir ayrılıqlarına, anlaşılmazlıqlara da ayar verər, tarixə və gələcəyə ortaq baxışın formalaşmasına ciddi kömək edərdi. Ortaq gələcəyin inşası necə olur? Müstəqillik illərində qazanılmış uğurlarla yanaşı, artıq zamanı çatmış növbəti addımları atmaqla: ortaq proqramlar, dərsliklər, yeni filmlər, davamlı teleradio yayımları və s. Beləliklə, bir neçə ildən sonra biz bir-birimizi, sözün bütün mənalarında, daha yaxşı anlaya biləcəyik" - deyə Ə.Qoşalı qeyd etdi.**

*İradə SARIYEVA*

Yol hərəkəti iştirakçıları arasında motosikletlərin idarə olunması yenicə kütləvi hal almağa başlasa da, yol infrastrukturumuz, motosiklet, eləcə də digər nəqliyyat vasitələri sürücüləri buna hazır deyillər. Qeyd edək ki, əksər xarici ölkədə motosiklet idarə etmək üçün xüsusi yollar mövcuddur.

# Paytaxtda motosiklet qəzaları artır, ayrıca yollar yoxdur, hətta piyada səkilərində hərəkət edən motosikletlərə rast gəlinir



***İlqar Hüseynli:** "Bir sıra yollarımız nəinki motosiklet, avtomobil idarə etmək üçün də yararsızdır"*

***Vaqif Əsədov:** "Motosiklet sürücüləri piyada yolu ilə hərəkət edirlərsə, bu, inzibati xətadır"*

Ancaq ölkəmizdə motosiklet idarə edənlər də avtomobil yollarından istifadə etməli olurlar. Bu da mütəmadi olaraq yol-nəqliyyat hadisələrinin yaşanmasına səbəb olur. Açıqlanan statistik rəqəmlərdə də qeyd olunur ki, son zamanlar motosiklet iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin sayı artıb.

Həmçinin, motosiklet idarə edənlər bəzi hallarda minik vasitəsini piyadalar üçün nəzərdə tutulmuş səkilərdə sürürlər. Bu hal, ilk növbədə, həmin yoldan keçən piyadalara təhlükə törədir.

Maraqlıdır, bu sahədə yaşanan problemləri həll etmək üçün ölkəmizdə də motosikletlər üçün ayrıca yollar yaradıla bilərmi?

**Sosial sahə üzrə ekspert İlqar Hüseynli qeyd etdi ki, motosikletlərin qəzaya uğramasının əsas səbəbi yollarımızın bu nəqliyyat vasitəsini idarə etmək üçün yararlı olub-olmaması ilə bağlı deyil:** "Motosikletlərin qəzaya uğraması bizim cəmiyyətdə motosiklet sürənlərə yol hərəkətinin digər iştirakçılarının münasibətindən irəli gəlir. Çünki motosiklet bizim cəmiyyət üçün yeni bir nəqliyyat vasitəsidir. Yəni motosiklet sürməyin kütləviləşməsi bizim üçün yenilikdir. İnsanlar sürətli motosiklet sürməyə meyl etməyə başlayırlar. Motosikletlərin qəzaya uğramasının əsas səbəbi ətrafdakı sürücülərin bu növ nəqliyyat vasitəsini anlamamasıdır. Bu ciddi həyəcan siqnalı verir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, bizim bir sıra yollarımız nəinki motosiklet, avtomobil idarə etmək üçün də yararsızdır: "Yollarımızda nasazıqlar, gözlənilməyən quyular çoxdur. Bununla yanaşı, işarələnmə problemi mövcuddur. Bunlar yolda problemlərin yaranmasına səbəb olan əsas amillərdəndir".

Onun sözlərinə görə, bir çox kafe və restoranın sifarişlə yemək çatdırılması üçün son zamanlar motosikletlərdən istifadə etməsi geniş yayılmaqdadır: "Bu, nəzarət tələb edən ciddi bir məsələdir. Bu tip iş yerlərinin çoxunda motosiklet idarə edən gənclərdir. Onların böyük əksəriyyətinin qeyd olunan nəqliyyat vasitəsini sürmək üçün xüsusi sürücülük vəsiqəsi də yoxdur. Aidiyyəti qurumlar bu məsələyə ciddi yanaşmalı, motosiklet sürücülərini yoxlamalıdırlar".

Ekspertin sözlərinə görə, motosiklet sürücüləri təhlükəsizlik qaydalarına riayət etməlidirlər: "Motosikletlərin ətrafı açıqdır. Kiçik qəza anında belə sürücünün ciddi zədə alma ehtimalı var, hətta ölümlə də nəticələnir".

Həmsöhbətimiz onu da vurğuladı ki, məhəllədaxili yollar motosiklet sürmək üçün yararlı deyil. Şəhərin mərkəzi küçələrində isə, əksinə, motosiklet sürmək üçün əlverişli şərait var: "Lakin əksər sürücünün qaydalara əməl etməməsi yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olur. Bəzi şəxslər xüsusən də axşam saatlarında şəhərin küçələrində yüksək sürətlə motosiklet sürürlər. Bu fonda onlar təkcə piyadaların deyil, öz həyatlarını da təhlükəyə atır. Bütün hallarda, yol polislərinin reydi nəticəsində bu cür neqativ halların sayında aza**lma müşahidə olunur".**

**Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Vaqif Əsədovun sözlərinə görə, motosiklet sürücüləri qaydalara əməl etməyə borcludurlar:** "Motosikletlər üçün xüsusi yol olmadığından, sürücülər yol hərəkətinin digər iştirakçıları ilə birgə avtomobil yollarından istifadə edirlər. Motosiklet sürücüləri piyada yolu ilə hərəkət edirlərsə, bu, inzibati xətadır. Bu xətanı törədənlər müvafiq qaydada cəzalandırılır. Motosiklet istifadəçilərindən tələb olunan ən vacib məsələ odur ki, yol nişanlarına, işıqforun qaydalarına əməl etsinlər. Qida məhsulları daşıyan motokuryerlə bağlı motosiklet sürücülərini işə götürərkən rəhbərlik məsuliyyət hiss etməlidir. Sürücülük vəsiqəsi olmayan insanların motosiklet sürücüsü kimi işə götürülməsinə yol verilməməlidir. Eyni zamanda, motokuryerlərin xüsusi geyim formaları, "kaska"ları olmalıdır. Bu qaydalara əməl etməyən motokuryerlər barədə inzibati protokol tətbiq oluna bilər".

*Günel CƏLİLOVA*

Dəniz sularının və dənizkənarı zonaların çirklənməsi, bununla əlaqədar ekoloji şəraitin korlanması Xəzər dənizinin əsas problemlərindən biridir. Məlumdur ki, Xəzər dənizinin əsas çirklənmə səbəbləri onun sahillərində yerləşən şəhərlərin və sənaye obyektlərinin çirkab sularının dənizə axıdılmasıdır.

# Xəzəri çirkləndirən obyektlərlə bağlı son qəti qərar verildi...

***Eyyub Hüseynov:** "Ekologiyaya ziyan vuran istənilən müəssisənin fəaliyyəti dayandırılmalıdır"*



*"...dövlət qurumları ilə yanaşı, ictimaiyyətin də təzyiqi olmalıdır"*

Xəzər dənizini çirkləndirən obyekt və qurumlara qarşı müəyyən tədbirlər görülüb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) Xəzər dənizini çirkləndirən əsas mənbələrin adını ictimaiyyətə açıqlayıb. Adları açıqlanan müəssisələrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xəbərdarlıq edilib, daha sonra qanun çərçivəsində müəyyən məbləğdə cərimə də tətbiq olunub.

"Bakı-Xəbər" qəzeti olaraq, Xəzər dənizini çirkləndirən obyektlərin adları açıqlananda bu məsələnin aktuallığını nəzərə alıb, həmin müəssisələrlə əlaqə saxladıq. Müəssisə rəhbərlərinin hər biri Xəzər dənizini çirkləndirmədiklərini bəyan etdilər. Ancaq nazirlik isə bildirir ki, artıq Xəzər dənizini çirkləndirən müəssisələrə xəbərdarlıq olunmayacaq və həmin obyektlərin fəaliyyəti tam şəkildə dayandırılacaq.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisi Mirsalam Qənbərov media nümayəndələrinə açıqlamasında qeyd edib ki, Xəzər dənizinin şirkət, müəssisə, təşkilat və obyektlər tərəfindən çirkləndirilməsi davam edərsə, onların fəaliyyətinin dayandırılması ilə bağlı aidiyyəti üzrə vəsatət qaldırılacaq: "Çünki bunun digər alternativi yoxdur. Tərəfimizdən dəfələrlə edilmiş xəbərdarlıqlara, bildirişlərə və ünvanlanmış məktublara əhəmiyyət verməyənlərə qarşı artıq bu addımı atmaq məcburiyyətində qalacağıq"

Ekspertlər də Xəzər dənizini çirkləndirən obyektlərin, istirahət mərkəzlərinin bağlanmasına tərəfdardırlar.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ekologiyaya ziyan vuran istənilən müəssisənin fəaliyyəti dayandırılmalıdır:** "Xəzər dənizini çirkləndirən istirahət mərkəzlərinin öncə adları ictimaiyyətə açıqlandı. Həmin müəssisələr Xəzər dənizini çirkləndirməmək üçün hər hansı bir tədbir görmədilər. Bu mövzu ilə bağlı həmin obyektlərə dəfələrlə xəbərdarlıq olunub. Xəbərdarlığa əməl etməyən müəssisələrin bağlanması onlar üçün ən böyük cəza olar. Bu cəza obyekt və müəssisə rəhbərləri ilə yanaşı, digərlərinə də dərs olar".

Həmsöhbətimiz onu da vurğuladı ki, Xəzər dənizinə, ümumiyyətlə, ekologiyaya zərər yetirən müəssisələrə dövlət qurumları ilə yanaşı, ictimaiyyətin də təzyiqi olmalıdır: "Məlumdur ki, Xəzər dənizini çirkləndirən istirahət mərkəzlərinin adları tam şəkildə açıqlanıb. Siyahı ilə tanış olanlar həmin məkanlara getməməlidirlər. Əhali bu cür etiraz vasitəsilə həmin müəssisələrə təzyiq göstərə bilər. Xəzər dənizini qorumaq hər bir azərbaycanlının vətəndaşlıq borcudur".

*Günel CƏLİLOVA*

№ 83 (3981) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

9 MAY 2019-cu il

www.baki-xeber.com

## Üçgözlü ilan

**Avstraliyanın, şimal ərazisinin parklar və vəhşi təbiət xidməti üçgözlü ilanın foto şəkillərini paylaşıb.**

"Deyerler.org" bildirir ki, "Monti Payton" adlandırılmış üçgözlü ilan, Darvin şəhərindən 44 km aralıda tapılmışdır. Mütəxəssislərin sözlərinə görə, ilanın yaşı çox deyil. Onun uzunluğu 40 sm-ə çatır. Alimlərin sözərinə görə, ilanın üçüncü gözü digər iki gözü kimi yaxşı görür. "Mən əvvəllər üçgözlü ilan görməmişdim. Laboratoriyamızda ikibaşlı piton ilanı var. Bu, sadəcə, Siam pişikləri kimi mutasiyanın başqa növüdür", - deyə serpemtoloq Brayn Fray bildirmişdir. Bir müddət öncə Hindistanda doğulmuş birgözlü keçi haqqında xəbər verilmişdir. Belə bir anomallıq siklopiya adlandırılaraq, 16 min heyvandan birində müşahidə olunur. Qeyd edək ki, adətən, mutasiyaya məruz qalmış heyvanlar çox yaşamır.



### TƏBRİK!

**"Şəhid Alı" adına Bərdə şəhəri 5 saylı tam orta məktəbin "1A" sinfinin "Əlifba" bayramıdır.**

*Bu günün birincisi,*
*Sabahın həkimi, vəkilisiz.*
*Gələcəyə açılan*
*Nurlu sabahımızsız.*

Əziz birincilər! Sizi "Əlifba" bayramı münasibətilə təbrik edirik. Sizə sülh, əminamanlıq, ruzili günlər arzulayırıq. Arzu edirik ki, həmişə həyatda da birinci olasınız.

## Elan

Abşeron rayonu, Xırdalan şəhər sakini İsmayılov Oqtay İsmayıl oğluna məxsus, Xırdalan şəhəri, Sərdarov küçəsi, 32 saylı fərdi yaşayış evinin şəxsi mülkiyyət hüququ ilə evlərin texniki inventarizasiya və qiymətləndirilməsinə aid 27 inventar nömrəli texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Qoxmuq kənd sakini Abdullayev Akif Qulu oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 606 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Ağayev Natiq Arif oğluna Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi (M/V № 003966) itdiyi üçün etibarsız sayılır.

Süleymanlı Mirzəli Qəşəm oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Məmmədli Cabir Nizami oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İsmayılova Vəfa Fizuli qızının adına, Abşeron rayonu, Masazır kəndində yerləşən №3 yaşayış evinə verilmiş qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## "Nar"ın dəstəyilə keçiriləcək NETTY-2019 mükafatına sənəd qəbulu davam edir

**"Nar"ın əsas tərəfdaşlığı ilə keçiriləcək NETTY-2019 Azərbaycanın milli internet mükafatı üçün sənəd qəbulu davam edir. Müsabiqədə iştirak etmək üçün ərizə qəbulu mayın 24-də başa çatacaq. Qeyd edək ki, ərizələr http://www.netty.azsaytında qəbul edilir. Mayın 24-dən 31-dək mükafatın nominantlar siyahısını formalaşdıran Ekspert Şurasının və Virtual münsiflər heyətinin səsverməsi keçiriləcək. 01 iyunda isə NETTY Akademiyası nominantlar sırasından qaliblərin müəyyən edilməsi üçün səsverməyə başlayacaq.**

Müsabiqə çərçivəsində aşağıdakı nominasiyalar üzrə Azərbaycanda ən yaxşı resurslar elan olunacaq: "Dövlət", "İqtisadiyyat və Biznes", "Təhsil və Elm", "Mədəniyyət və Yaradıcılıq", "İnformasiya və Xəbərlər", "Elektron Xidmətlər və Ticarət", "İlin İT Hadisəsi" nominasiyaları və s.

NETTY mükafatı hər il ən yaxşı Azərbaycan İT layihələrini, əhəmiyyətli veb-resursları və informasiya texnologiyaları sahəsində peşəkarları müəyyən edir və onları mükafatlandırır. NETTY Azərbaycan milli internet mükafatı 2004-cü ildə təsis edilib. Ümumdünya şəbəkəsinin milli seqmenti və İKT bazarının inkişafı məqsədilə yaradılmış NETTY informasiya texnologiyaları sahəsində Azərbaycanın ilk peşəkar mükafatıdır.

Qeyd edək ki, bu il də müsabiqə "Nar"ın əsas tərəfdaşlığı və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Mədəniyyət Nazirliyinin rəsmi dəstəyilə keçirilir. "Nar" özünün çoxşaxəli korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində Azərbaycanda İKT sahəsinin inkişafına və müxtəlif innovativ texnologiyaların, o cümlədən, startapların tətbiqinə dəstək olur.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını tətbiq edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## "Bakcell" müharibə veteranlarına həsr olunmuş sərgiyə dəstək göstərib

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti Böyük Vətən Müharibəsi veteranlarından bəhs edən sərgiyə dəstək göstərib.**

9 May - faşizm üzərində Qələbə Gününə həsr olunmuş "Qələbə ruhunu yaşadanlarımız" adlı sərgi "Baki Metropoliteni" QSC tərəfindən "Bakcell"in dəstəyilə "Gənclik" stansiyasının keçidlərində təşkil edilib. Fotosərgidə Böyük Vətən Müharibəsində qəhrəmancasına vuruşmuş canlı əfsanələr - azərbaycanlı veteranların fotolarından ibarət tablolar nümayiş olunur. Bununla yanaşı, Böyük Vətən Müharibəsində Azərbaycanın rolu barədə maraqlı, diqqətçəkən məlumatların verildiyi stendlər də sərgilənir.

Müharibə iştirakçıları haqqında daha ətraflı məlumat almaq üçün sərgidəki şəklin altında yerləşdirilən QR koddan istifadə etmək lazımdır.

Sərginin açılışı may ayının 7-də "Bakı Metropoliteni" QSC-nin və "Bakcell"in rəsmi nümayəndələri, həmçinin, Böyük Vətən Müharibəsi cəbhələrində döyüşmüş veteranların iştirakı ilə keçirilib.





**Qoç** - Bu gün sizin üçün praktiki olaraq mümkünsüz iş olmayacaq. Çünki, müsbət təmayüllərin təsiri böyükdür və ən başlıcası, ulduzlar sizi himayə edir. İşdə ciddi uğurlara nail olaraq rəqibləri arxada qoya bilərsiniz.



**Buğa** - Bu gün müəyyən uğurlar olacaq, fəqət, dönəm heç də yaxşı deyil. Ətrafınızdakı insanlar sizə yanlış münasibət bəsləyəcək, dəyərləndirmədə səhv edəcəklər. Dostlar və ya qohumlarla mübahisələrə şərait yaratmayın.



**Əkizlər** - Kiçik problemlər, yaxın ətrafınızdakı insanlarla fikir ayrılıqları günü yorucu, usandırıcı edəcək. Amma, əsla təlaşa düşməyin, narahat olmayın. Çətin anlarda sizə dəstək verəcək, kömək edəcək insan yanınızda olacaq.



**Xərçəng** - Hazır olun, sizi çox mürəkkəb, qarışıq, təlatümlü gün gözləyir. Anın hökmünə əsaslanaraq qərar verməyin, emosiyaların köləsi olmayın. Sonradan peşmançılıq hissi yaradacaq hərəkətlərə yol verməyin.



**Şir** - Günün əksər hissəsi sakit keçəcək. Ciddi problemlər və həyəcanlar olmayacaq. Digər tərəfdən, əhəmiyyətli uğur və ya irəliləyişə də ümid etməyin. Yeni işə başlasanız, gecikmələrə və təxirə salınmalara hazır olun.



**Qız** - Yaşananlara və baş verənlərə real nəzərlərlə baxın. Əks təqdirdə, öz illüziyalarınızın qurbanına çevrilərək, sahildəki qumsallıqda yaratdığı qum sarayının əbədi olduğunu düşünən sadəlövh xatırlada bilərsiniz.



**Tərəzi** - Bu gün laübalı və qarışıq təmayüllərin, mürəkkəb hadisələrin təsirlərini hiss edəcəksiniz. Yaradıcı yanaşma, qeyri-standart həll tələb edən işlərdə böyük uğur mümkündür. Səliqə və detallara ifrat diqqət tələb edən işlərdən yayınmayın.



**Əqrəb** - Sizin üçün çox mühüm sahədə irəliləyişə nail ola bilərsiniz. Özü də uğurlar kiçik olmayacaq. Seçdiyiniz yoldan sapmayın, başqalarının sizə mənfi təsir göstərmələrinə imkan verməyin.



**Oxatan** - Yaranmış situasiyanı emosional dəyərləndirməyin, hisslərə qapılmayın. Belə olarsa, ciddi problemlərlə qarşılaşa bilərsiniz. Mühüm işləri görün, dünən və ya daha əvvəl başladığınız işləri başa vurmağa səy göstərin.



**Oğlaq** - Bu gün ifrat dərəcədə impulsiv olmayın, qərarları tələsik qəbul etməyin. Həmin qərarların perspektivdə pis nəticələri ola bilər. İşdə həmkarlar və çalışdığınız bəzi insanlarla fikir ayrılıqları, hətta, mübahisə mümkün ola bilər.



**Dolça** - Bu gün bəzi çətinliklər və problemlər olsa da, müsbət təmayüllər üstünlük təşkil edəcək. Bunu hiss edəcəksiniz. İşdəki çətinliklər həll olunmaqla yanaşı, sizə yeni vəzifə təklifi də mümkündür.



**Balıqlar** - İntellektual fəaliyyət üçün əlverişli gündür. Qarşınıza qoyulan çox çətin və mürəkkəb tapşırıqların öhdəsindən gələcəksiniz. Gərəkli informasiyanı vaxtında xatırlayın, bu məlumatı tətbiq etməyə çalışın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Fransada məktəbdə şagirdlərin siyahısına 15 qoyun da salındı

**Fransanın İzer Departamentindəki Krets-an-Belldon kommunasının ibtidai məktəbində şagirdlər siyahısına 15 qoyun da daxil edilib.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə "Le Parisien" yazıb. Məlumata görə, 3,3 mindən çox əhalisi olan dağ kəndində yerləşən məktəb yeni tədris ilinin əvvəlindən şagirdlərin sayının 266-dan 261-dək azalması səbəbindən indiki kimi 11 yox, 10 siniflə tədrisə davam etməli olacağı barədə xəbərdarlıq alıb. Ancaq valideynlər belə addıma qarşı çıxaraq sinif sayının azalmasının onların hər birində şagird sayının artmasına, bunun da təhsilin keyfiyyətinin aşağı düşməsinə səbəb olacağını bildiriblər. Etirazçılar tərəfində olan yerli çoban dünən məktəbə 65 qoyun gətirib. Onları girişdə məktəblilər və onların valideynləri üzərində "Biz qoyun deyilik", "Məktəbi idarə etmək sürünü idarə etmək deyil" yazılmış plakatlarla qarşılayıblar. "Burada çətin vəziyyətdə olan uşaqlar var. Amma milli təhsil sistemini yerdəki arqumentlər yox, yalnız rəqəmlər narahat edir", - aksiyanın təşəbbüskarlarından olan və Ümumfransa Məktəblilərin Valideynləri Təşkilatının iştirakçısı Qael Laval bildirib. Şəhər meri Jan-Lui Mare etirazçıların tərəfini tutub və heyvanların məktəbli siyahısına daxil edilməsinə rəsmən şahidlik edib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.